HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

VERGİLƏR NAZİRLİYİ AZƏRBAYCAN



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 37 (879) ■ 27 sentyabr 2017 www.vergiler.az Qiyməti: 60 qəp.

# Prezident İlham Əliyev: *«Ermənistanın hərbi təxribatı davam edərsə, Azərbaycan təcavüzkarı yenidən cəzalandıracaq»*

Xəbər verdiyimiz kimi, sentyabrın 20-də Nyu-Yorkda BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışı olub. Mötəbər tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev geniş nitq söyləyib. Dövlət başçımızın çıxışının tam mətnini oxucularımızın diqqətinə çatdırırıq.



1992-ci il fevralın 26-da Ermənistan Xocalının 613 dinc sakinini, o cümlədən 106 qadın və 63 uşağı qətlə yetirərək, hərbi cinayət törədib. Bəşəriyyətə qarşı bu dəhşətli cinayəti törədən hərbi kriminallardan biri Ermənistanın hazırkı prezidentidir

- Cənab sədr.

Xanımlar və cənablar,

25 ildən çoxdur ki, Ermənistan Azərbaycanın 20 faiz ərazisini - Dağlıq Qarabağı və ölkəmizin digər 7 rayonunu işğal altında saxlayır. Dağlıq Qarabağ Azərbaycanın əzəli və tarixi torpağıdır. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin təxminən 20 faizi işğal altındadır. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistan azərbaycanlılara qarşı Ermənistanda, Dağlıq Qarabağda və Azərbaycanın digər 7 rayonunda etnik təmizləmə siyasəti həyata keçirib. Ermənistan Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədib. Xocalı soyqırımı 10-dan artıq ölkə tərəfindən rəsmən tanınıb. 1992-ci il fevralın 26-da Ermənistan Xocalının 613 dinc sakinini, o cümlədən 106 qadın və 63 uşağı qətlə yetirərək, hərbi cinayət törədib. Bəşəriyyətə qarşı bu dəhşətli cinayəti törədən hərbi kriminallardan biri Ermənistanın hazırkı prezidentidir.

Aparıcı beynəlxalq təşkilatlar Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasını tələb edən qətnamələr qəbul ediblər. 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurasının Parlament Assambleyası və Avropa Parlamenti kimi digər beynəlxalq təşkilatlar oxşar qərar və qətnamələri qəbul etmişlər. Ermənistan bu qərar və qətnamələri icra etmir. Ermənistan 24 ildir ki, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur və əfsuslar ki, o, buna görə cəzalandırılmır. Bəzi hallarda BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra olunur. Bizə gəldikdə isə 24 ildir ki, qətnamələr icra olunmur. Bu, ikili standarta əsaslanan yanaşmadır. Bu yanaşma qəbuledilməzdir. Ermənistana qarşı beynəlxalq sanksiyalar qəbul edilməlidir. BMT-nin mühüm islahatlarından biri Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizminin yaradılması olmalıdır.

Ermənistan status-kvonun dəyişməz qalması üçün əlindən gələni edir, substantiv danışıqların qarşısını alır. ATƏT-in Minsk qrupunun həmsədrləri - Fransa, Rusiya və ABŞ dəfələrlə bildirmişlər ki, status-kvo qəbuledilməzdir. Sual olunur: necə olur ki, despotik və orta əsrlər rejiminin idarə etdiyi bu cür korrupsiyaya uğramış, uğursuz dövlət uzun illər ərzində beynəlxalq hüququ pozmağa, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə və dünyanın aparıcı ölkələrinin bəyanatlarına məhəl qoymamağa müvəffəq olur? Buna cavab isə ikili standartlardır. Təcavüzkara heç bir beynəlxalq təzyiq göstərilmir, Ermənistan diktatorluğuna heç bir beynəlxalq sanksiya tətbiq edilmir. Bu siyasətə son qoyulmalıdır.

**Davamı 2-ci səhifədə**

# Bölgələrin inkişafı Azərbaycan dövlətinin diqqət mərkəzindədir

Sentyabrın 24-də Prezident İlham Əliyev Neftçala rayonuna səfər edib. Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin Neftçala şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edib, sonra Neftçala Sənaye Məhəlləsinin açılışında iştirak edib. Bildirilib ki, sənaye məhəlləsində yüksək standartlara cavab verən 7 istehsal sahəsi, ikimərtəbəli inzibati bina, texniki və köməkçi binalar tikilib. Hazırda Neftçala Sənaye Məhəlləsində 9 müəssisə və 1 kiçik sahibkarlıq emalatxanası fəaliyyət göstərir. Müəssisədə ümumilikdə 474 daimi iş yeri yaradılıb.



Dövlətimizin başçısı sənaye məhəlləsində istehsal korpusları və burada fəaliyyət göstərən müəssisələrlə yaxından tanış olub. Bildirilib ki, məhəllədəki ən böyük müəssisələrdən biri «Azərmaş» ASC - «İran Khodro» birgə avtomobil zavodudur. Azərbaycan-İran birgə müəssisəsinin illik istehsal gücü 10 min avtomobildir. Müəssisədə «İran Khodro» şirkəti 25 faizlik paya malikdir. Müasir texnologiyalar, avadanlıq və mexanizmlər əsasında qurulacaq zavodda «Runna», «Samand», «Soren», «Dena», «Peugeot-206», «Peugeot-207», «Renault-Tondar», «Renault-Pickup» kimi avtomobil modelləri istehsal ediləcək.

Prezident İlham Əliyev 110/35/6 kV-luq «Neftçala» yarımstansiyasının açılışında iştirak edib, Mərkəzi Rayon Xəstəxanasında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub. Rayonun əkin sahələrinə suvarma suyunun verilməsi mərasimində iştirak edən dövlətimizin başçısına bildirilib ki, «Neftçala magistral kanalının nasos stansiyası ilə birlikdə tikintisi» layihəsinin icrasına 2006-cı ildə başlanılıb. İşçi layihədə rayonun 13 min 400 hektar əkin sahəsinin su təminatını yaxşılaşdırmaq üçün Kür çayı üzərində saniyədə 14,4 kubmetr suyun verilməsi üçün 6 və 2 aqreqatlı 2 üzən nasos stansiyası, uzunluğu 7020 metr və diametri 1220 millimetr olan dördxətli təzyiqli metal boru kəməri, təzyiqli hovuz və uzunluğu 25 kilometrə yaxın olan dəmir-beton üzlüklü kanalın qurğularla birlikdə tikintisi nəzərdə tutulub.

Prezident İlham Əliyev Neftçala rayonu ərazisində fermer Əlihüseyn Hacıyevin pambıq sahəsi ilə tanış olub, pambıqçılarla söhbət edib.

Həmin gün Salyan rayonuna gələn dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin Salyan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub. Səfər çərçivəsində 110/35/10 kV-luq «Qaraqaşlı» yarımstansiyasının açılışında iştirak edən dövlətimizin başçısı 1200 şagird yerlik Salyan şəhər 2 saylı tam orta məktəbin yeni binasının açılış mərasiminə də qatılıb, məktəbin binasının rəmzi açılışını bildirən lenti kəsib. Bildirilib ki, üç mərtəbədən ibarət yeni məktəb binasında 48 sinif otağı, 6 laboratoriya, əmək təlimi otaqları, tibb məntəqəsi, kitabxana, 380 yerlik akt zalı, idman və atıcılıq zalları fəaliyyət göstərir.

Rayonda Bayraq Muzeyinin açılışında iştirak edən dövlətimizin başçısına bildirilib ki, muzeyin yerləşdiyi ərazidə Bayraq Meydanı yaradılıb, burada dövlət bayrağı ucaldılıb, ərazidə geniş abadlaşdırma işləri görülüb. Salyan rayonunun Çuxanlı-Gəncəli-Piratman-Parça Xələc-Seyidan avtomobil yolunun açılışında iştirak edən Prezident İlham Əliyev daha sonra rayonun Xıdırlı kəndində dəniz suyunun duzsuzlaşdırılması kompleksinin fəaliyyəti ilə də tanış olub. Bildirilib ki, müəssisədə istehsal olunan su içməli su göstəricilərinə tam uyğundur. Hazırda istehsal olunan suyun təqribən 90 faizi ətraf ərazilərdə salınan 700 hektara yaxın yaşıllıqların suvarılmasında, qalan hissəsi isə məişətdə istifadə edilir. Bu pilot layihə yalnız dəniz suyunun duzsuzlaşdırılması ilə kifayətlənməyib, eyni zamanda, Şirvan kollektorunun suyunun duzdan təmizlənməsini həyata keçirir. Ümumiyyətlə isə Şirvan kollektoru üzərində quraşdırılan qurğular gündə 5 min kubmetr suyu içməli su həddinə kimi duzsuzlaşdırır.

Prezident İlham Əliyev görülən işlərlə yaxından tanış olub, tapşırıq və tövsiyələrini verib.

# Paytaxtda yeni sənaye parkı fəaliyyətə başladı

Sentyabrın 22-də Prezident İlham Əliyev Balaxanı Sənaye Parkının açılışında iştirak edib, Balaxanı bərk məişət tullantılarının zərərsizləşdirilməsi poliqonunda görülən işlərlə tanış olub.

Bildirilib ki, Balaxanı Sənaye Parkının yaradılması ölkəmizdə yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsi, qeyri-neft sektorunun, o cümlədən «yaşıl iqtisadiyyat»ın inkişafı, əhalinin istehsal sahəsində məşğulluğunun artırılması, Bakı şəhəri və ətraf qəsəbələrdə ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədinə xidmət edir.

Sənaye parkında rezidentlər üçün xarici və daxili infrastruktur qurulub, yol salınıb, əraziyə elektrik, qaz, su, kanalizasiya və rabitə xətləri çəkilib, lazımi kommunikasiya sistemi yaradılıb, istehsal sahələri, ofis və əməliyyat binası tikilib. Artıq ümumi sahəsi 12 min kvadratmetr olan anqar tipli 15 istehsalat binası rezidentlərin istifadəsi üçün tam hazırdır. Sənaye parkının Balaxanı bərk məişət tullantılarının zərərsizləşdirilməsi poliqonuna, tullantıların çeşidlənməsi və yandırılması zavodlarına, o cümlədən əsas nəqliyyat qovşağına yaxın olması logistika, xammal və enerji təchizatına, eləcə də istehsal olunmuş məhsulun asanlıqla satış bazarına çıxarılmasına əlverişli imkan yaradır. Hazırda Balaxanı Sənaye Parkında işlənmiş mühərrik yağlarının, tullantı plastik butulkaların, kağız-karton məmulatlarının, tullantı plastik materialların, süngər tullantılarının təkrar emalı sahələri üzrə qeydiyyata alınan 5 rezident tərəfindən 23 milyon manat investisiya yatırılıb. Parkda ilkin mərhələdə ümumilikdə 400-ə yaxın daimi iş yeri yaradılacaq.

Prezident İlham Əliyev Balaxanı Sənaye Parkının rəmzi açılışını bildirən lenti kəsib, yaradılan müəssisələrlə yaxından tanış olub. Qeyd olunub ki, Parkın rezidentlərindən biri «Az.Ekol.» MMC-dir. Müəssisə plastik-PET butulkaların təkrar emalından plastik qırıntıların istehsalı üzrə fəaliyyət göstərəcək. Layihənin ümumi investisiya məbləği 1,5 milyon manatdır. Müəssisənin illik istehsal gücü 1500 tondur. İstehsal sahəsində 30-dan çox daimi iş yeri açılacaq. Sənaye parkının digər rezidenti - «Ekokat» MMC işlənmiş mühərrik yağlarının emalı üzrə fəaliyyət göstərəcək. İnvestisiya qoyuluşu 1 milyon manat təşkil edən müəssisənin illik istehsal gücü 3000 tondur.

Balaxanı Sənaye Parkının daha bir rezidenti isə fərdi sahibkar Etibar Eminovun «Çapar» poliqrafiya müəssisəsidir. Burada tullantı kağızlardan istifadə olunmaqla çap-poliqrafiya məhsulları istehsal ediləcək. Müəssisənin ümumi investisiya məbləği 1 milyon manat, illik istehsal gücü isə 348 tondur. Artıq müəssisə sifarişlər də qəbul etməyə başlayıb.

Dövlətimizin başçısı Balaxanı Sənaye Parkının daha bir rezidenti - «METAK» MMC-nin müəssisəsinin fəaliyyəti ilə də tanış olub. Müəssisə tullantı-plastik məmulatların təkrar emalı nəticəsində müxtəlif plastik qablaşdırma məhsullarının istehsalı ilə məşğul olacaq. Parkın rezidentlərindən biri olan «FORİELLA» MMC isə süngər tullantılarının təkrar emalı və mebel istehsalı üzrə fəaliyyət göstərəcək.

Daha sonra Prezident İlham Əliyev Balaxanı bərk məişət tullantılarının zərərsizləşdirilməsi poliqonu ilə tanış olub.

Dünya Bankı ilə birgə həyata keçirilən «Bərk məişət tullantılarının vahid idarəçiliyi» layihəsi çərçivəsində Balaxanı poliqonunda tullantıların beynəlxalq standartlara uyğun düzgün yerləşdirilməsi və basdırılması təmin edilib. Poliqona gətirilən bərk məişət tullantıları beynəlxalq sanitar normalara uyğun olaraq, xüsusi hücrələrə yerləşdirilir və hücrə dolduqdan sonra tullantıları ətraf mühitdən təcrid etmək məqsədilə tullantılar geomembran və geotekstil qatlarla örtülür, üzərinə vegetativ torpaq səpilərək yaşıllıqlar yaradılır. Tullantılardan ayrılan çirkab sular xüsusi süzgəclər vasitəsilə texniki suya çevrilərək suvarma işləri üçün istifadə edilir. Üzvi tullantıların çürüməsi nəticəsində əmələ gələn bioqazlardan isə xüsusi generator vasitəsilə ildə 2 MVt/saat elektrik enerjisi əldə olunur.

## BU NÖMRƏMİZDƏ


ŞƏFFAFLIQ VƏ HESABATLILIQ BÜDCƏ DAXİLOLMALARINA MÜSBƏT TƏSİR GÖSTƏRİR 2

VERGİLƏR NAZİRİ QAXDA VƏTƏNDAŞLARI QƏBUL EDİB 3

BEYNƏLXALQ REYTİNQLƏRDƏ MÖVQEYİMİZİN MÖHKƏMLƏNMƏSİ MƏQSƏDİLƏ... 4

VERGİ İSLAHATLARI KİÇİK VƏ ORTA SAHİBKARLIĞI STİMULLAŞDIRIR 5

# Prezident İlham Əliyev:

## *«Ermənistanın hərbi təxribatı davam edərsə, Azərbaycan təcavüzkarı yenidən cəzalandıracaq»*

**Əvvəli 1-ci səhifədə**

Təcavüzkara münasibətdə bu cür siyasət təkcə ədalətsizliyi nümayiş etdirmir, eyni zamanda, Ermənistan diktatorluğunda elə bir illüziya yaradır ki, sanki onlar öz terror siyasətini bundan sonra da davam etdirə bilərlər.

Ötən ilin aprelində Ermənistan şəhər və kəndlərimizə hücum edərək, təmas xəttində növbəti hərbi cinayət törətdi. Bu hücum nəticəsində 6 dinc azərbaycanlı qətlə yetirildi, onların sırasında bir uşaq da var idi. Bundan əlavə, 26 mülki şəxs yaralandı. Yüzlərlə evlərimiz dağıdıldı. Azərbaycan öz vətəndaşlarını müdafiə etməli oldu. Uğurlu əks-hücum nəticəsində Azərbaycan 3 işğal olunmuş rayonda - Ağdərə, Füzuli və Cəbrayılda bir neçə əraziləri azad etdi və öz bayrağını azad edilmiş ərazilərdə qaldırdı. Ermənistan rəhbərliyi bu dərsi yaddan çıxarmamalıdır. Əks təqdirdə, Ermənistanın növbəti təxribatının nəticələri onlar üçün daha ağrılı olacaq.

Döyüş meydanında məğlub olan Ermənistan şəhərlərimizə və kəndlərimizə hücum çəkmək kimi məkrli siyasətindən istifadə edir. 2017-ci il iyulun 4-də Ermənistan 82 və 120 millimetrlik mina və qumbaraatanlardan istifadə edərək, Füzuli rayonunun Alxanlı kəndinə məqsədli hücum etmiş, 2 dinc sakini - 2 yaşlı Zəhra Quliyevanı və onun nənəsini qətlə yetirmişdir. 2017-ci il avqustun 7-də Ermənistanla sərhəddə yerləşən Tovuz rayonunda 13 yaşlı oğlan erməni əsgərləri tərəfindən yaralanmışdır. Beynəlxalq ictimaiyyət erməni faşizminə və terroruna son qoymalıdır. Azərbaycan münaqişənin sülh yolu ilə həllinə sadiqdir, lakin, eyni zamanda, Ermənistanın hərbi təxribatı davam edərsə, ölkəmiz BMT-nin xartiyasına uyğun olaraq, öz vətəndaşlarını qoruyacaq və lazım gələrsə, təcavüzkarı 2016-cı ilin aprelində olduğu kimi yenidən cəzalandıracaq.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa olunmalıdır. Ermənistan işğalının yaratdığı böyük çətinliklərə baxmayaraq, Azərbaycan sürətlə və uğurla inkişaf edir.

Azərbaycan Birləşmiş Millətlər Təşkilatının fəal üzvüdür. 2011-ci ildə Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi. 155 ölkə Azərbaycana səs verdi. Üzv dövlətlərin tam əksəriyyəti Azərbaycana və onun siyasətinə öz dəstəyini nümayiş etdirdilər. Həmin vaxt cəmi 20 yaşı olan ölkə üçün bu, böyük nailiyyət oldu. Azərbaycan müasir, sabit və demokratik ölkədir. Demokratiyanın inkişafı və insan hüquqlarının müdafiəsi hökumətimizin əsas prioritetlərindəndir. Azərbaycanda bütün fundamental azadlıqlar, o cümlədən ifadə, mətbuat, yığıncaq və dini azadlıqlar tam şəkildə təmin edilir.

Azərbaycan dünyanın tanınmış multikulturalizm mərkəzlərindən biridir. Multikulturalizm Azərbaycanda dövlət siyasətidir. Bütün etnik qrupların və dinlərin nümayəndələri Azərbaycanda sülh və harmoniya şəraitində yaşayırlar. Azərbaycanda 2016-cı il «Multikulturalizm İli», 2017-ci il isə «İslam Həmrəyliyi İli» elan olunmuşdur.

Ərazisində demək olar ki, milli azlıqlar olmadığı, monoetnik ölkə kimi tanınan və ksenofobiya dövlət siyasəti olan Ermənistandan fərqli olaraq, Azərbaycan çoxmillətli ölkədir, cəmiyyətimizin mədəni, etnik və dini müxtəlifliyi böyük sərvətimizdir. İslamofobiyanı pik həddinə çatdırmış Ermənistan işğal olunmuş ərazilərdə bütün məscidlərimizin dağıdılması kimi bir çox vandalizm aktlarını törətmişdir.

Azərbaycan dinlərarası dialoqun gücləndirilməsinə yönəlmiş çox sayda beynəlxalq tədbirlərə ev sahibliyi etmişdir. Onların sırasında BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunu, Dünya Dini Liderlər Forumunu,

> **Milli azlıqlar olmadığı, monoetnik ölkə kimi tanınan və ksenofobiya dövlət siyasəti olan Ermənistandan fərqli olaraq, Azərbaycan çoxmillətli ölkədir, cəmiyyətimizin mədəni, etnik və dini müxtəlifliyi böyük sərvətimizdir**

dörd dəfə keçirilmiş Mədəniyyətlərarası Dialoq və beş dəfə keçirilmiş Bakı Beynəlxalq Humanitar forumlarını və digər mühüm tədbirləri qeyd etmək olar.

İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvü olan Azərbaycan 2008-ci ildə BMT-nin dəstəklədiyi «Bakı Prosesi»nə start verdi. «Bakı Prosesi»nin əsas məqsədi müsəlman aləmi ilə Avropa arasında dialoqu, tərəfdaşlığı və əməkdaşlığı gücləndirməkdir.

2015-ci ildə Azərbaycan birinci Avropa Oyunlarına ev sahibliyi etdi. 50 ölkədən gəlmiş 6000 atlet həmin Oyunlarda iştirak etdi. 2017-ci ildə Azərbaycan 54 ölkəni təmsil edən təxminən 3000 idmançının iştirakı ilə dördüncü İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etdi.

> **Azərbaycanın uğurlu inkişafı bir daha göstərir ki, yalnız azad və müstəqil olduqda, ölkənin taleyi öz xalqının əlində olduğu halda uğur əldə etmək olar**

İki il ərzində paytaxtımız Bakıda Avropa və İslam Oyunları keçirildi. Bu, həmçinin multikulturalizmin təşviq edilməsinə böyük töhfə oldu. Azərbaycan yığması birinci Avropa Oyunlarında ikinci yeri, İslam Həmrəyliyi Oyunlarında isə birinci yeri tutdu. Bu, göstərir ki, Azərbaycan dünyanın aparıcı idman ölkələrindən biridir. İdman nailiyyətlərimizin digər sübutu Azərbaycanın «Rio 2016» Olimpiya Oyunlarında medalların sayına görə 14-cü yeri tutması oldu. Bütövlükdə, Azərbaycan 18 medal qazandı.

Azərbaycan sosial və iqtisadi sahələrdə böyük inkişafa nail olub.

2004-cü ildən başlayaraq Azərbaycanın iqtisadiyyatı 3 dəfədən çox artmış, ölkəmizdə 1 milyon 600 mindən artıq iş yeri açılmışdır. İşsizlik səviyyəsi dünyada ən aşağı göstəricilərdən biridir - 5 faiz. Prioritetlərimizdən biri yoxsulluğun azaldılması idi. 2004-cü ildə yoxsulluğun səviyyəsi 40 faizdən artıq idi. İndi bu, cəmi 5-6 faizdir. Nağd valyuta ehtiyatlarımız ölkənin ÜDM-nə bərabərdir. Xarici dövlət borcu ÜDM-in 20 faizindən azdır.

2009-cu ildə Azərbaycan Dünya Bankının «Doing Business» hesabatında «Dünyanın aparıcı islahatçı ölkəsi» kimi qiymətləndirilmişdir. Davosun Dünya İqtisadi Forumunun «2016-2017-ci illər üzrə qlobal rəqabətə davamlılıq hesabatında» Azərbaycan 138 ölkə sırasında 37-ci yeri tutmuşdur.

2015-ci ildə Azərbaycan Minilliyin İnkişaf Məqsədlərinin icrasında əldə etdiyi böyük nailiyyətinə görə həmin ilin «Cənub-Cənub» mükafatını almış və 2010-cu ildən etibarən yüksək insan inkişafı kateqoriyalı ölkələr sırasına daxil edilmişdir.

Azərbaycanın kosmik sənayesinin sürətli inkişafı, 2 telekommunikasiya və yer səthinin müşahidəsi peykləri - «Azerspace» və «Azersky» və bu yaxınlarda buraxılacaq «Azerspace-2» adlanan üçüncü peyk ölkəmizin dünya kosmik klubunun üzvləri sırasına daxil olmasını mümkün etdi.

Bu gün Azərbaycan nəinki sənaye və kənd təsərrüfatı, o cümlədən əqli məhsullarını ixrac edir. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi - «ASAN xidmət» ictimai münasibətlərin və xidmətlərin müasir modelidir.

Eyni yerdə 251 xidmətin göstərilməsi, tam şəffaflıq, korrupsiya və rüşvətxorluğun sıfıra endirilməsi «ASAN xidmət»i bir çox ölkələr üçün cəlbedici edib.

Sırf Azərbaycan brendi olan «ASAN xidmət» yaradıldığı gündən ötən 5 il ərzində 5 milyon insana 1 milyon 600 min xidmət göstərib. Müraciətlərin ümumi sayı 17 milyona çatıb. «ASAN xidmət»in ictimaiyyət tərəfindən bəyənilməsi 98 faiz təşkil edir.

2015-ci ildə dövlət xidmətlərinin əhəmiyyətli dərəcədə sadələşdirilməsinə, təkmilləşməyə verdiyi töhfəsinə və yaradıcı olmağına görə «ASAN» Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidməti Mükafatına layiq görülmüşdür.

Siyasətimizin əsas məqsədi vətəndaşlarımızın rifah halının daha da yaxşılaşdırılmasıdır. 2004-cü ildən etibarən ölkəmizdə əmək haqları 5,6 dəfə, pensiyalar isə 8,2 dəfə artmışdır.

Xarici maliyyə dəstəyi olmadan biz erməni işğalından əziyyət çəkən qaçqın və məcburi köçkünlər üçün təxminən 100 yeni qəsəbə və şəhərcik salmışıq. Bu günə qədər 250 mindən artıq insanın həyat şəraiti yaxşılaşdırılıb, onlara yeni evlər və mənzillər verilib. Həmin şəhərcik və qəsəbələrdə 152 məktəb, 59 tibb mərkəzi və 60 bağça tikilmişdir.

Ümumilikdə, 2004-cü ildən başlayaraq 3000-dən artıq məktəb, 600-dən çox xəstəxana və tibb mərkəzləri tikilmiş, yaxud təmir edilmişdir. Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Hər il 5 milyondan artıq insan, yəni ölkə əhalisinin yarısı tamamilə dövlət büdcəsindən maliyyələşən tibbi yoxlamadan keçir.

Azərbaycan qlobal enerji bazarında mühüm rol oynayır. Beynəlxalq bazarlarda etibarlı neft və qaz təchizatçısı olan Azərbaycan dünyanın bir çox ölkələri üçün enerji təhlükəsizliyini təmin edir. Bu gün Azərbaycan öz beynəlxalq tərəfdaşları ilə birlikdə «Cənub Qaz Dəhlizi» layihəsinin başa çatdırılmasına çox yaxındır. Sərmayələrinin həcmi 40 milyard dollara çatan bu layihə dünyanın ən iri infrastruktur layihələrindən biridir.

Digər mühüm prioritet nəqliyyatdır. Avropa ilə Asiya arasında yerləşən Azərbaycan Avrasiyada aparıcı nəqliyyat qovşaqlarından birinə çevrilmək istiqamətində öz coğrafi mövqeyindən müdrikcəsinə istifadə edir.

Son illərdə Azərbaycanda 6 beynəlxalq hava limanı tikilmiş, 11 min kilometr müasir şosse və yollar çəkilmişdir. Xəzər dənizində Azərbaycanın 270 gəmidən ibarət ən iri ticarət donanması var.

Azərbaycanda müasir gəmiqayırma zavodu bütün növ və ölçüdə gəmiləri tikməyə qadirdir. Azərbaycan özünün dəmir yol infrastrukturunu müasirləşdirir. Ərazimizin tam əksəriyyəti dəmir yolları ilə əhatə olunur.

Gələn il biz Xəzər regionunda ən iri beynəlxalq dəniz ticarəti limanını istismara verəcəyik. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinə böyük sərmayələr yatırır. Ölkəmizdən keçən hər iki marşrut Şərqdən Qərbə, Şimaldan Cənuba gedən ən qısa yollar olacaq.

Sonda bildirmək istərdim ki, ötən il biz müstəqilliyimizin bərpasının 25-ci ildönümünü qeyd etdik. Azərbaycanın uğurlu inkişafı bir daha göstərir ki, yalnız azad və müstəqil olduqda, ölkənin taleyi öz xalqının əlində olduğu halda uğur əldə etmək olar. Azərbaycan xalqının ən böyük xoşbəxtliyi ondan ibarətdir ki, biz xalqımızın milli maraqlarına əsaslanan müstəqil siyasət aparan müstəqil ölkədə yaşayırıq.

Sağ olun.

# Şəffaflıq və hesabatlılıq büdcə daxilolmalarına müsbət təsir göstərir



**Azərbaycan İqtisadçılar İttifaqının və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə «Azərbaycan iqtisadiyyatının strateji yol xəritəsi: hesabatlılıq və şəffaflıq problemləri» mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilib.**

Tədbirdə demokratik cəmiyyətin mühüm amili kimi qiymətləndirilən şəffaflığın artırılması və hesabatlılığın yüksək səviyyədə qurulması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, yeni hesabatvermə formalarının tətbiqi, mütərəqqi idarəetmə və nəzarət metodlarından istifadə, prudensial nəzarət mexanizmlərinin yaradılması və risk əsaslı nəzarətə keçidin müəyyən edilməsi üzrə tövsiyələrin hazırlanması mövzularında çıxışlar olub, müzakirələr aparılıb.

Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev çıxışında bildirib ki, Azərbaycanda korrupsiyaya qarşı mübarizədə güclü siyasi iradə, mütərəqqi qanunvericilik bazası mövcuddur və bu, beynəlxalq təcrübədən istifadə edilərək daim təkmilləşdirilir. «ASAN xidmət»in əhatə etdiyi sahələrdə korrupsiya ilə bağlı şikayətlər azalıb, bəzi hallarda isə yox dərəcəsinə enib. Qeyd edilib ki, son illər dövlət-biznes münasibətlərinin yeni yanaşma əsasında qurulması şəffaflıq və hesabatlılığın artmasına səbəb olub: «Yoxlamaları həyata keçirən qurumlarla sıx əməkdaşlq mövcuddur və səmərəli fəaliyyət həyata keçirilir. Korrupsiyaya qarşı mübarizə təkcə dövlət sektorunu deyil, özəl sektoru da əhatə edir. Burada əsassız yoxlamaların aparılmaması da mühüm əhəmiyyət kəsb edir. Bürokratik əngəllər yaradılmamalıdır və bunlar daim diqqətdə saxlanılır».

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirib ki, ölkədə aparılan yeni islahatlara uyğun olaraq, idarəetmədə və iqtisadiyyatda şəffaflıq və hesabatlılığın artırılması, təsərrüfat subyektlərində maliyyə intizamının, əmək bazarına nəzarətin gücləndirilməsi, vergidən yayınma hallarına qarşı mübarizə tədbirlərinin daha da genişləndirilməsi istiqamətində mühüm addımlar atılır. Bu sahədə görülən sistemli tədbirlər qarşıdakı dövrdə iqtisadiyyatın daha da sağlamlaşmasını, büdcə daxilolmalarının həcminin yüksəlməsini təmin edəcəkdir.

Tədbirdə çıxış edən digər natiqlər maliyyə hesatlılığı sahəsində qabaqcıl təcrübənin tətbiqi, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən mühasibat uçotunda beynəlxalq standartlara riayət edilməsinin stimullaşdırılması, korporativ idarəetmə normalarının tətbiqinin gücləndirilməsi, büdcədənkənar vəsaitlərin idarə olunması və monitorinqi sisteminin təkmilləşdirilməsi kimi məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayeva tədbirdə çıxış edərək bildirib ki, yeni dövrün çağırışlarına uyğun olaraq, vergi sistemində geniş islahatlar aparılır, vergi inzibatçılığı təkmilləşdirilir. Yürüdülən siyasətin əsas məqsədi sahibkarlığın, xüsusilə də kiçik və orta biznesin inkişafı üçün daha əlverişli şəraitin yaradılması, vergi yükünün azaldılması, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın formalaşdırılması, nağdsız əməliyyatların həcminin və vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, ixracın stimullaşdırılması, dürüst və şəffaf uçotun qurulmasıdır. Ölkənin perspektiv inkişaf istiqamətlərini və hədəflərini müəyyənləşdirərək gerçəkləşdirilməsini təmin etmək məqsədilə təsdiq olunmuş «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri» mühüm əhəmiyyət kəsb edir. Bu sənədlər milli iqtisadiyyatın böhrandan çıxarılması və enerji resurslarından asılı olmayan dayanıqlı inkişaf modelinin formalaşdırılması baxımından vacibdir. Strateji yol xəritələrində Vergilər Nazirliyinin əsas icraçı olduğu tədbirlər də müəyyənləşdirilib.

Vergilər Nazirliyi tərəfindən «Azərbaycan Respublikasının Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsi» üzrə müəyyən edilmiş tədbirlər planında nəzərdə tutulmuş «Səfirlik və digər əhəmiyyətli dövlət və qeyri-dövlət saytlarında yerləşdiriləcək nümunəvi məlumat formasının hazırlanması» istiqaməti üzrə işlər tam icra olunaraq «Azərbaycan Respublikasında xarici investisiyalar üçün əlverişli vergi mühiti» başlığı ilə Vergilər Nazirliyinin və Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik, daimi nümayəndəlik və konsulluqlarının rəsmi internet səhifələrində yerləşdirilməsi təmin edilib. Bundan başqa, «Pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən malların təqdim edilməsi üzrə nağdsız əməliyyatlara vergi güzəştlərinin tətbiqi mexanizmi» və «Vergi ödəyicilərində keçirilmiş vergi nəzarəti tədbirləri nəticəsində onlara hesablanmış vergi və maliyyə sanksiyalarının ödəmə müddətindən tez ödənilməsinə görə maliyyə sanksiyaları üzrə güzəştlərin tətbiqi mexanizmi» ilə bağlı qanun layihələri hazırlanıb. Həmçinin, «Yerli investisiyalı kommersiya hüquqi şəxslərin məlumat dəyişikliyinin elektron qaydada həyata keçirilməsi ilə bağlı qanunvericilikdə dəyişikliklərin edilməsi və məlumat dəyişikliyi prosedurunun sadələşdirilməsi üzrə layihə»nin, «İstehsal sahəsi, daşınmaz əmlakı və işçi qüvvəsi ilə Bakı, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonu istisna olmaqla, digər regionlarda ixrac yönümlü məhsulların istehsalı fəaliyyəti ilə məşğul olan ixracatçılara vergi güzəştlərinin tətbiqi mexanizmi»nin ilkin layihələri hazırlanma mərhələsindədir. Bunlarla yanaşı, Vergilər Nazirliyinin əsas icraçı olduğu «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»nin «KOS sahəsində stimullaşdırıcı vergi islahatlarının davam etdirilməsi» tədbiri üzrə nəzərdə tutulmuş «Yeni qeydiyyatdan keçən vergi ödəyiciləri ilə iş üzrə Metodiki Vəsait»in layihəsi və «KOS subyektlərində muzdla işləyən işçilərin sayından və əməkhaqqı fondundan asılı olaraq vergi güzəştlərinin tətbiqi mexanizminin işlənib hazırlanması» istiqaməti üzrə qanun layihəsi hazırlanıb.

Görüləcək işlərin effektivliyinin təmin edilməsi və bu sahədə xarici ölkələrin təcrübələrinin dərindən öyrənilməsi məqsədilə Vergilər Nazirliyində Dünya Bankının nümayəndə heyəti ilə görüş təşkil olunub. Bankın missiyasının əsas məqsədi Azərbaycanda Vergi İslahatlarına Dəstək Proqramı çərçivəsində texniki yardımın göstərilməsi üçün hökumətdəki tərəfdaşları ilə vergi siyasəti və inzibatçılığında islahatların planlaşdırılmış növbəti mərhələsini müzakirə etmək olub. Eyni zamanda, «Kənd təsərrüfatı məhsullarının daxili bazardakı ticarəti üzrə bazar iştirakçıları ilə müzakirələr aparılmaqla mövcud vəziyyətin öyrənilməsi və onların daxili bazardakı ticarəti üzrə uçot göstəriciləri ilə bağlı tənzimləmə sisteminin hüquqi əsaslarının təkmilləşdirilməsi ilə bağlı rəylərinin öyrənilməsi» üzrə işçi qrup bir neçə rayonda görüşlər keçirib. Görüşlərdə kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan şəxslər və bazar iştirakçıları ilə söhbətlər aparılıb, bu sahədə problemlərin nədən ibarət olduğu öyrənilib. «Strateji yol xəritəsi»ndə nəzərdə tutulmuş tədbirlərin daha keyfiyyətli icrasına nail olmaq üçün Avropa İttifaqına üzv ölkələrin «Kənd təsərrüfatı məhsullarının ticarət reyestri» mövzusunda qabaqcıl təcrübəsinin öyrənilməsi məqsədilə TAIEX müraciət forması doldurularaq Avropa Komissiyasına təqdim olunub. Komissiya tərəfindən beynəlxalq təcrübənin öyrənilməsini zəruri edən amillər məqbul hesab edilib və müraciət müsbət qarşılanıb. Hazırda işçi səfərin təşkili istiqamətində səfər ediləcək ölkənin müəyyənləşdirilməsi və digər texniki məsələlərlə bağlı Avropa Komissiyası ilə danışıqlar aparılır.

Yol xəritələrində vergi ilə bağlı nəzərdə tutulan tədbirlərin icrası əlverişli biznes mühitinin inkişaf etdirilməsinə, kiçik və orta sahibkarlıq subyektlərində aparılan yoxlamaların optimallaşdırılmasına və onların risk dərəcələri əsasında təşkilinə, bu sahədə stimullaşdırıcı vergi islahatlarının davam etdirilməsinə, daxili bazarda kənd təsərrüfatı məhsullarının ticarəti üzrə uçot göstəriciləri ilə bağlı tənzimləmə sisteminin hüquqi əsaslarının təkmilləşdirilməsinə əsaslı zəmin yaradır.

**E.CƏFƏRLİ**

# Vergilər naziri Qaxda vətəndaşları qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdığı problemlərin həllinə kömək göstərirlər.**

Sentyabrın 22-də vergilər naziri Fazil Məmmədov Qax şəhərində Qax, Şəki, Zaqatala və Balakən rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbulda Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər, vergilərin hesablanması, ödənilməsi, əmək müqavilələrinin bağlanması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarına işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gəlinən müxtəlif çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətlərinə baxılıb.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunub, müraciətlərin bir qismi nəzarətə götürülüb, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razılıqlarını bildiriblər.

# Vergi ödəyiciləri ilə fikir mübadiləsi aparılıb

**Vergilər Nazirliyi yanında Kiçik Sahibkarlıqla İş Departamentinin inzibati binasında paytaxt ərazisində qeydiyyatda olan, iqtisadiyyatın müxtəlif sektorlarında çalışan kiçik sahibkarlıq subyektləri ilə görüş keçirilib.**

Tədbirdə Kiçik Sahibkarlıqla İş Departamentində qeydiyyatda olan ictimai iaşə, pərakəndə ticarət, mebel mağazaları, mobil rabitə obyektləri, aksizli mallar və tikinti materiallarının satışı ilə məşğul olan və s. qəbildən olan vergi ödəyiciləri iştirak ediblər. Görüşdə vergi qanunvericiliyinə edilmiş dəyişikliklərdən irəli gələn tələblərin yerinə yetirilməsi və vergi ödəyicilərinin cari ildən tətbiq olunan yeni qaydalara əməl etmələri vəziyyəti müzakirə olunub.

Görüşdə çıxış edən Kiçik Sahibkarlıqla İş Departamentinin baş direktor müavini İlkin Həsənov bildirib ki, ölkəmizdə sahibkarlığın inkişafının dəstəklənməsi, özəl sektorun fəaliyyətinin genişləndirilməsi, iqtisadiyyata investisiya qoyuluşlarının stimullaşdırılması istiqamətində həyata keçirilən iqtisadi siyasətin tərkib hissəsi olaraq vergi sistemində də geniş islahatlar aparılır. İslahatlar zamanı əsas diqqət kiçik və orta sahibkarlıq (KOS) subyektlərinə yönəldilir. KOS subyektlərində yoxlamalarla bağlı prosedurlar, yoxlamaların aparılma prosesi təkmilləşdirilir. İlk növbədə yoxlamaların risk dərəcəsi əsasında aparılması prinsiplərinin tətbiqi genişləndirilir, yoxlamaların sayı optimallaşdırılır. KOS subyektlərində səyyar vergi yoxlamalarının sayı məhdudlaşdırılır və elektron yoxlama metodu tətbiq edilir. Məqsəd daha çox məlumatların ötürülməsi, uçotun dəqiqləşdirilməsi, xidmət çeşidlərinin artırılması, bu kateqoriya üzrə sahibkarlıq subyektlərinin vergi və inzibati yükünün azaldılması ilə könüllü əməletmə səviyyəsini yüksəltməkdir. Vergi ödəyiciləri yaradılmış bu əlverişli şəraitdən yararlanmalı, öz fəaliyyətlərini artırmalı, eyni zamanda vergi öhdəliklərinə riayət edilməsinə məsuliyyətlə yanaşmalıdırlar.

Departamentin məlumatlandırma və vergi təbliğatı şöbəsinin rəhbəri Maisə Abdullayeva Vergi Məcəlləsinə edilmiş dəyişikliklər və «Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi, əmək müqaviləsinin rəsmiləşdirilməsi, ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri ilə gəlir və xərclərinin uçotunun aparılması qaydası və bu sahədə mövcud vəziyyət haqqında məlumat verib. Bildirib ki, nağdsız hesablaşmaların aparılmasına və əmək münasibətlərinin leqallaşdırılmasına nəzarət tədbirləri artırılıb, həmin sahələrdə vəziyyətin təhlil edilməsi və şəffaflığın artırılması ilə bağlı zəruri işlər görülür. Aparılan ardıcıl tədbirlərə baxmayaraq, ictimai iaşə fəaliyyəti ilə məşğul olan sahibkarların uçotu sahəsində hələ də bəzi problemlər mövcuddur. Bu baxımdan, onlara dürüst və dəqiqləşdirilmiş uçot sistemi qurmaları üçün tövsiyələr verilib.

Tədbir zamanı qanunvericiliyə dəyişikliklərlə bağlı bəzi mövzular ətrafında müzakirələr aparılıb və vergi ödəyicilərinin sualları cavablandırılıb. Sahibkarlar vergi orqanı tərəfindən tələb olunan sənədlərin təqdim edilməsi sahəsində çətinliklərlə üzləşdiklərini, həmin sənədlərin göndərilməsi qaydalarının daha da təkmilləşdirilməsini, bəyannamə formalarında bir sıra texniki detalların və elektron xidmətlərin asanlaşdırılmasını təklif ediblər. Qeyd olunub ki, vergi islahatlarının davam etdirilməsi və qanunvericiliyə növbəti dəyişikliklər zamanı bu məsələlərin nəzərə alınması məqsədəuyğundur.

Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentində «e-Sertifikat», «e-DTA» elektron xidmətlərinin tətbiq edilməsi, vergi borclarının ödənilməsi və bəyannamələrin vaxtında təqdim edilməsi mövzusunda keçirilən tədbir də sahibkarların məlumatlandırılmasına həsr olunub. Departamentin bəyannamələr şöbəsinin rəhbəri Xəyal Feyzullayev bildirib ki, vergi islahatları ilə bağlı mühüm yeniliklərdən biri sertifikatların elektron şəkildə təqdim olunmasıdır. Bu, şirkətlər üçün yeni imkanlar deməkdir. Podratçı və subpodratçı şirkətlər üçün e-sertifikatın verilməsi onlardan sıfır faiz (0%) dərəcəsi ilə ƏDV tutulmasına icazə verir və sertifikat təsdiq sənədi hesab edilir. Elektron sertifikatın tətbiq edilməsi həmin fəaliyyət üzrə prosesin sürətləndirilməsinə, vaxt itkisinin qarşısının alınmasına və uçotun daha asan təşkil edilməsinə şərait yaradır. Bu sahədə yeni elektron xidmətin istifadəyə verilməsi ƏDV bəyannaməsinin təkmilləşdirilməsinə imkan verəcək.

Tədbirdə vergi borclarının ödənilməsi, bəyannamələrin vaxtında təqdim olunması vəziyyəti barədə də məlumat verilib, vergi ödəyicilərini maraqlandıran suallar cavablandırılıb.

**ELBRUS**

# İnsan resurslarının inkişafı strategiyasının hədəfləri konkret nəticələr əldə etməkdir



**Vergilər Nazirliyi insan resurslarının təkmilləşdirilməsi, peşəkar kadr hazırlığının daha yüksək səviyyəyə qaldırılması məsələsinə xüsusi diqqətlə yanaşır. 2017-ci ildə də bu məsələ milli vergi sistemində prioritet fəaliyyət istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Vergilər Nazirliyinin İnsan resursları departamentinin baş direktoru Faiq Şahbazovun müsahibəsinin başlıca mövzusunu bu istiqamətlərin işıqlandırılması təşkil edir.**

***- Faiq müəllim, Vergilər Nazirliyinin insan resurslarının idarə edilməsi sahəsində həyata keçirdiyi siyasət indi daha çox aktuallaşıb. Bu nə ilə bağlıdır?***

- Müasir dövrdə hər bir ölkənin vergi inzibatçılığının səmərəli təşkili inzibatçılığın müxtəlif sahələrində informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinə və müasir idarəetmə üsullarına əsaslanan bilik menecmentinin tətbiqini zəruri edir. Azərbaycan iqtisadiyyatının yeni inkişaf istiqamətləri, biliklərə əsaslanan müasir iqtisadiyyatın qurulması vergi xidməti qarşısında da yeni vəzifələr müəyyən edir və onların sırasına müasir korporativ idarəetmə sisteminin qurulması da daxildir. Bu baxımdan, Vergilər Nazirliyinin apardığı islahatların bir qismi müasir vergi inzibatçılığında bilik menecmentinin və texnologiyaların rolunun artırılmasına yönəldilib.

Vergi orqanlarının fəaliyyəti günün tələblərinə uyğun olaraq durmadan yenilənir, təkmilləşdirilir. Bu isə həmin yenilikləri, dəyişiklikləri icra edəcək resursların, xüsusən insan resurslarının inkişafını tələb edir. Bu inkişafın sistemli, planlı və ardıcıl şəkildə təşkil edilməsi məqsədilə vergilər nazirinin 15 avqust 2017-ci il tarixli əmri ilə «2017-2019-cu illərdə Azərbaycan Respublikasının dövlət vergi orqanlarında insan resurslarının inkişaf Strategiyası» təsdiq edilib. Strategiya hazırlanarkən insan resurslarının idarə edilməsi sahəsində vergi orqanlarının təcrübəsi, ümumi dövlət qulluğunda hazırda gedən proseslər, qabaqcıl beynəlxalq təcrübə (xüsusilə 2014-2016-cı illərdə Avropa İttifaqının «İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə dəstək» tvinninq layihəsi çərçivəsində öyrənilmiş praktikalar) nəzərə alınıb.

***- «2017-2019-cu illərdə Azərbaycan Respublikasının dövlət vergi orqanlarında insan resurslarının inkişaf Strategiyası»nın əsas missiyası nədən ibarətdir?***

- Təbii ki, hər hansı təşkilatın istənilən sahə üzrə qəbul edilən strategiyasının başlıca bir missiyası var. Bu, təşkilatın qarşısında duran məqsədlərə yüksək səviyyədə nail olmaqdır. Vergi orqanlarında insan resurslarının inkişaf strategiyası potensiallı kadrları vergi orqanlarına cəlb etmək və saxlamaq, kadrların bilik və bacarıqlarından təyinatı üzrə və məqsədyönlü şəkildə istifadə etmək yolu ilə vergi orqanlarının fəaliyyətində səmərəliliyin artırılması missiyasını daşıyır.

***- Strategiya üzrə hansı tədbirlərin görülməsi planlaşdırılır?***

- Strategiyanın Tədbirlər Planında bir çox işlərin görülməsi nəzərə tutulub. Bunların sırasında prioritet istiqamətlər kimi vergi orqanlarına işə qəbul və vakant vəzifələrin tutulmasının təkmilləşdirilməsi; rəhbər vəzifəli şəxslərin potensialının planlı və sistemli şəkildə artırılması; vəzifələrin qruplaşdırılaraq ümumi standartlarının hazırlanması; əməkdaşların yerdəyişməsi (rotasiya) mexanizminin və qaydalarının təkmilləşdirilməsi; işçilərin peşəkarlığının artırılması tədbirlərinin gücləndirilməsi; fəaliyyətin qiymətləndirilməsinin yeni mexanizminin yaradılması və nəticələrə uyğun motivasiya sisteminin qurulmasını sadalamaq olar. Bunlarla yanaşı, insan resurslarının idarə edilməsi sahəsində mövcud hüquqi aktların təkmilləşdirilməsi və sistemləşdirilməsi, kadr məlumatlarının informasiya sisteminin təkmilləşdirilməsi, insan resurslarının inkişafı sahəsində digər qurumlarla əlaqələrin və beynəlxalq əməkdaşlığın genişləndirilməsi, insan resursları ilə iş sahəsində təbliğat və maarifləndirmə işlərinin gücləndirilməsi də diqqət mərkəzində olan istiqamətlərdəndir.

***- Strategiya hansı dövrü əhatə edir?***

- Strategiya üçün nisbətən qısa - iki il yarımlıq müddət müəyyən edilib. Məlum olduğu kimi, dünyada insan resurslarının idarə edilməsi sahəsində yanaşmalar durmadan dəyişir, xüsusən iqtisadi profilli dövlət orqanları qarşısında yeni məqsədlər və hədəflər yaranır. Bu isə insan resurslarının yeni yanaşmalara, məqsəd və çağırışlara uyğunlaşdırılmasını tələb edir. Odur ki, daha uzunmüddətli strategiya özünü doğrultmaya bilərdi. Məhz bütün bunlar nəzərə alınaraq, strategiyanın 2017-2019-cu illəri əhatə etməsi nəzərdə tutulub.

***- Strategiyanın icrasının nəticəsindən əsas gözləntilər nədən ibarətdir?***

- Gözləntilərimiz çoxdur. İlk növbədə, insan resurslarının idarə edilməsinin kadrların seçimindən başladığını nəzərə alsaq, ayrı-ayrı sahələr üzrə vergi orqanlarının spesifik kadr tələbatlarını müəyyən etmək və kadrların işə qəbulunu, yerdəyişməsini və yüksəlişini bu tələblərə uyğun həyata keçirmək nəzərdə tutulub.

Dünyada proseslər sürətlə gedir, yeni informasiya mənbələri və texnologiyaları yaranır, tendensiyalar durmadan dəyişir. Bu isə əməkdaşların dəyişiklik və yeniliklərlə ayaqlaşması, onların bilik və bacarıqlarının daim təkmilləşdirilməsi zərurətini yaradır. Odur ki, daha bir gözləntimiz də əməkdaşların peşəkarlığının fasiləsiz olaraq artırılmasıdır. Peşəkarlığın artırılması prosesi tədricən könüllü formaya keçməli, əməkdaşlar özünüinkişafda maraqlı olmalıdırlar. Bunun üçün isə, təbii ki, onların motivasiyası gücləndirilməli, yeni həvəsləndirmə mexanizmləri işlənib hazırlanmalıdır. Qeyd edilənlər strategiyanın icrasının gözlənilən nəticələrindəndir.

İnsan resurslarının idarə edilməsi sahəsində görülən işlərin bir-biri ilə sıx əlaqələndirilməsi, məsələn, işçilərin yuxarı vəzifələrə irəli çəkilməsinin təlim-təhsil prosesləri ilə əlaqəsinin gücləndirilməsi də vacib məqamlardandır.

Yuxarıda qeyd edilən işlər nəticə yönümündə təşkil edilməli, insan resurslarının inkişafına sərf olunan resurslar əldə etdiyimiz nəticələrə adekvat olmalıdır. Odur ki, insan resurslarının inkişafına yatırılan «investisiyanın» yüksək səviyyədə geriyə dönüşünün təmin edilməsi əsas məqsədlərimizdən biridir.

Gördüyünüz kimi, gözləntilərimiz kifayət qədər iddialıdır. Onlar təkcə insan resurslarının idarə edilməsi strukturlarının deyil, eləcə də bütün əməkdaşların, əsasən rəhbər vəzifəli şəxslərin xüsusi səyini və əməkdaşlığını tələb edir. Ümid edir və inanıram ki, biz qarşıya qoyduğumuz məqsədlərin gerçəkləşdirilməsinə maksimum dərəcədə nail olacağıq.

> Qarşıda duran hədəf və məqsədlərin həyata keçirilməsində aparıcı qüvvə məhz analitik düşüncəyə, müvafiq bilik və bacarıqlara yiyələnmiş insan resurslarıdır

# ABŞ-ın ticarət missiyası Azərbaycana gələcək

**Amerika Birləşmiş Ştatlarının Ticarət Nazirliyi və Azərbaycan səfirliyinin dəstəyi ilə ABŞ-Azərbaycan Ticarət Palatasının təşkil etdiyi ABŞ ticarət missiyasının oktyabrın 16-dan 18-dək ölkəmizə səfəri gözlənilir. Missiyanın əsas məqsədi iki ölkə arasında iqtisadi, ticarət və işgüzar əlaqələrin inkişafına töhfə vermək, habelə yeni əməkdaşlıq əlaqələrinin qurulması, o cümlədən Azərbaycanda investisiya yatırımları imkanlarının təşviqidir.**

ABŞ Ticarət Nazirliyi tərəfindən sertifikatlaşdırılmış missiya şirkət və heyət üzvlərinin sayına görə indiyədək reallaşan missiyalar arasında ən böyüyü hesab edilir. Onun tərkibinə müxtəlif sahələrdə, o cümlədən kosmik sənaye, müdafiə, təhlükəsizlik və yüksək texnologiyalar, telekommunikasiya, maliyyə və bankçılıq, kommunal xidmətlər, tikinti, təmir və mühəndislik, yol və körpülərin salınması, ətraf mühit, nəqliyyat və logistika, kənd təsərrüfatı texnika və texnologiyaları, suvarma, qida sənayesi, dəmir yolu və digər nəqliyyat vasitələri məhsul və xidmətləri üzrə ixtisaslaşmış ABŞ və dünyanın tanınmış korporasiyaları qatılıb. Ümumilikdə 30-dək heyətdən ibarət missiyaya «Acrow Bridge», «Altec Worldwide», «Amsted Rail», «Argus Limited», «AVIS», «Baron», «DTN», «Geophysical Survey Systems», «Greenbrier», «Lindsay Corporation», «Lockheed Martin», «Miyamoto International», «MWH Global», «Nelson & Pade», «Obie Technologies», «Overseas Private Investment Corporation», «Tutti-Frutti Licensor», «US Commercial Service», «USACC», «VISA» kimi şirkət və təşkilatlar daxildir.

Səfər çərçivəsində missiya üzvlərinin Azərbaycanda dövlət qurumları, yerli şirkətlər, investisiya agentlikləri və beynəlxalq təşkilatlarla bir sıra görüşlər keçirməsi planlaşdırılır. Ümumilikdə, səfər zamanı 120-dən çox işgüzar görüşün təşkili gözlənilir.

# Qarşılıqlı xidmətlərin həcmi artıb

2017-ci ilin birinci yarısında Azərbaycanın xarici dövlətlərlə qarşılıqlı xidmətləri 6,2 milyard dollar təşkil edib. Bu, 2016-cı ilin eyni dövrü ilə müqayisədə 8,8 faiz çoxdur. Azərbaycan Mərkəzi Bankının hesabatında deyilir ki, bunun 4,1 milyard dolları qeyri-rezidentlər tərəfindən Azərbaycanın rezidentlərinə, 2,1 milyard dolları isə Azərbaycan rezidentlərinin xarici ölkələrin rezidentlərinə göstərilən xidmətlərdir.

Qarşılıqlı xidmətlər dövriyyəsinin 13,9 faizi nəqliyyat xidmətləri üzrə aparılan əməliyyatların payına düşür. Həmin xidmətlər üzrə dövriyyə 858 milyon dollar təşkil edib. Bu məbləğin 48,5 faizi (416 milyon dollar) qeyri-rezidentlərin Azərbaycanın nəqliyyat sistemlərindən istifadə etmələri ilə bağlıdır. Qeyri-rezidentlərin Azərbaycan rezidentlərinə göstərdikləri nəqliyyat xidmətlərinin dəyəri isə 442 milyon dollara bərabər olub.

2017-ci ilin ilk 6 ayında qarşılıqlı turizm xidmətlərinin dövriyyəsi ötən ilin müvafiq dövrünə nisbətən 5,6 faiz artaraq 2,5 milyard dollara bərabər olub. Hesabata əsasən, əcnəbi turistlər ölkəmizdə azərbaycanlı turistlərin xərclədiyi vəsaitdən 100 milyon dollar daha çox xərcləyib: əcnəbi turistlərin xərcləri 1,3 milyard dollar, azərbaycanlı turistlərin xaricdəki xərcləri isə 1,2 milyard dollar təşkil edib.

Hesabat dövründə qeyri-neft sektoru üzrə qeyri-rezidentlərə ödənilən tikinti xidmətlərinin dəyəri ötən ilin müvafiq dövrünə nisbətən 60,5 faiz azalaraq 31 milyon dollar təşkil edib. Qeyri-neft sektoru üzrə qeyri-rezidentlərə ödənilən digər işgüzar xidmətlərin dəyəri isə ötən ilin müvafiq dövrünə nisbətən 24,5 faiz artaraq 386 milyon dollara bərabər olub.



Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

## Elektron qaimə-faktura

***Pərakəndə ticarət fəaliyyəti göstərən şəxslər malları komissiyaya götürən zaman elektron qaimə-faktura əldə etməlidirlərmi?***

Vergi Məcəlləsinin 16.1.11-6-cı maddəsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlı Məcəllədə nəzərdə tutulmuş qaydada qaimə-faktura və ya elektron qaimə-faktura təqdim edilməlidir.

«Pərakəndə ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası»nın 3.9-cu bəndində qeyd edilmişdir ki, pərakəndə ticarət fəaliyyəti göstərən şəxslər tərəfindən komissiyaya qəbul edilmiş mallar «Malların təhvil-qəbul aktı» ilə sənədləşdirilir və malların komissiyaya qəbul edilməsi ilə bağlı tərəflər arasında müqavilə bağlanılır.

**Qeyd olunanlara əsasən:**

Malların komissiyaya verilməsi malların təqdim olunması hesab edilmədiyindən, komitent tərəfindən komisyonçuya verilmiş mallara görə elektron qaimə-faktura təqdim olunmur.

## Bələdiyyə nümayəndələri məlumatlandırılır

12 saylı Ərazi Vergilər Departamentinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu idarəsinin əməkdaşları tərəfindən Göygöl rayonunda fəaliyyət göstərən bələdiyyə üzvləri, icra nümayəndələri və vergi ödəyiciləri ilə görüş keçirilib.

Maarifləndirmə və vergi mədəniyyətinin artırılması məqsədi daşıyan tədbirdə çıxış edən idarənin direktoru Rauf Mirzəyev diqqəti ölkəmizdə sahibkarlığın fəaliyyətinə geniş şərait yaradılmasına, vergi qanunvericiliyinin təkmilləşdirilməsinə yönəldərək bildirib ki, vergiyə əməletmə səviyyəsinin artırılması məqsədilə ödəyicilər qarşısında vergi uçotuna dair bir sıra tələblər müəyyənləşib. İlin əvvlindən bəri vergi orqanı əməkdaşlarının apardıqları nəzarət tədbirləri zamanı vergi ödəyiciləri tərəfindən yol verilən nöqsanlar uçot sahəsində hələ də problemlərin qaldığını göstərir.

İdarənin şöbə rəhbəri Adil Şükürov və həmin şöbənin əməkdaşı Rəşad Şamilov ictimai iaşə, o cümlədən mövsümi fəaliyyət üzrə vergitutma məsələləri, nağdsız hesablaşmalar, işlərin görülməsi və xidmətlərin göstərilməsinə cəlb edilmiş fiziki şəxslərlə əmək və ya mülki müqavilə əsasında xidməti müqavilələrin rəsmiləşdirilməsi və vergilərin ödənilməsi prosedurları, gəlir və xərclərin uçotunun aparılması qaydaları, nəqliyyat xidməti və daşımalar, kənd təsərrüfatının istehsalı və emalı üzrə vergi uçotu və vergitutma qaydaları, habelə sabit verginin tətbiqi vəziyyəti barədə məlumat veriblər. Tədbirin sonunda əmək müqavilələrinin rəsmiləşdirilməsi, nağdsız hesablaşmaların aparılması, nəqliyyat xidməti və daşımalar, sadələşdirilmiş vergi üzrə sabit məbləğin tətbiqi və vergi qanunvericiliyinin pozulmasına görə tətbiq edilən maliyyə sanksiyaları barədə iştirakçıların çoxsaylı sualları cavablandırılıb.

# Beynəlxalq reytinqlərdə mövqeyimizin möhkəmlənməsi məqsədilə...

### *«Doing Business» hesabatında Azərbaycan Respublikasının mövqeyinin yaxşılaşdırılması ilə bağlı 2017-2018-ci illər üzrə Tədbirlər Planı» təsdiq edilib*

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) məlumatına görə, bu plan Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli sərəncamı ilə yaradılmış «Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı» komissiyanın bir illik fəaliyyətinin məntiqi nəticəsi kimi qiymətləndirilməlidir. Tədbirlər Planı Azərbaycanda biznes və investisiya mühitinin əlverişliliyinin, yerli və xarici investorlar üçün cəlbediciliyinin daha da artırılması, rəqabətqabiliyyətliliyin möhkəmləndirilməsi istiqamətində hədəfyönümlü addımların atılmasına xidmət etmək məqsədi daşıyır.

İİTKM-nın eksperti Vüsal Musayev Tədbirlər Planının tərkib hissəsi olaraq, «Doing Business» indeksinin 9 alt indikatoru üzrə islahat tədbirlərinin həyata keçirilməsinin nəzərdə tutulduğunu bildirmişdir. Bunlar qanunvericilik indikatorları, praktiki - administrativ tətbiq indikatorları və makro-iqtisadi indikatorları əhatə edir: «Tədbirlər Planı çərçivəsində atılacaq addımlar sırasında əsasən tikintiyə icazələrin verilməsi, elektrik təchizatı şəbəkələrinə qoşulma, əmlakın qeydiyyatı, kreditlərin alınması, kiçik investorların maraqlarının qorunması, vergilərin ödənişi, sərhəddə ticarət, müqavilələrin icrasının təmin edilməsi, müəssisələrin bağlanması istiqamətində islahat tədbirlərinə xüsusi yer verilib».

İqtisadçı ekspert Vüqar Bayramov bildirmişdir ki, «Doing Business» hesabatı Azərbaycan üçün çox vacibdir. Hesabat həm ölkə ilə bağlı məlumatın müəyyənləşməsi, həm də iqtisadiyyatın inkişafı istiqamətində investisiya imkanları ilə bağlı fikirlərin formalaşması və eləcə də ölkəyə yeni sərmayələrin cəlb edilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Xüsusən postneft dövründə ölkəyə daha çox sərmayələrin cəlb olunmasına ehtiyac var. Qeyri-neft sektorunun inkişafı birbaşa cəlb edilən xarici sərmayənin həddindən asılı olaraq müəyyənləşəcək. Bu baxımdan, «Doing Business»də Azərbaycanın imicinin yaxşılaşdırılması prioritet məsələlərdəndir. Güman edirəm ki, tədbirlər planının təsdiq edilməsi Azərbaycanın «Doing Business»dəki yerinə ciddi təsir göstərə bilər».

V.Bayramov qeyd etmişdir ki, tədbirlər planının həyata keçirilməsi mərhələli şəkildə və hesabatın prinsiplərinə uyğun aparılır. Burada əsas məqsəd Azərbaycanın mövqeyinin yaxşılaşdırılmasına nail olmaqdır. İşçi qrupun yaradılması, tədbirlər planının təsdiq edilməsi ondan xəbər verir ki, Azərbaycan, «Doing Business» daxil olmaqla, digər beynəlxalq hesabatlarda da öz mövqeyinin yaxşılaşdırılması istiqamətində daha sistemli fəaliyyət göstərmək niyyətindədir: «Doing Business»in xüsusi metodologiyası var. İndi tədbirlərin həmin metodologiyaya uyğun olaraq həyata keçirilməsinə ehtiyac var. Burada qiymətləndirmə əsasdır. Qiymətləndirmə ilə paralel olaraq həm də iş adamları arasında keçirilən sorğular və digər formalarda aparılan yoxlamalar da nəticələrə təsir göstərir. Hesab edirəm ki, «Doing Business» metodologiyasına uyğun qiymətləndirmənin həyata keçirilməsi çox vacibdir».

Mövzu ilə bağlı millət vəkili Azər Badamov bildirmişdir ki, ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması istiqamətində atılan addımların məntiqi nəticəsi olaraq, Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətlilik dinamikası möhkəmlənir və bu, dünyanın reytinq təsisatları tərəfindən də yüksək dəyərləndirilməkdədir. «Doing Business» hesabatları dünya tərəfindən maraqla izlənilir: «İnvestorlar bir ölkəyə investisiya yerləşdirmək istəyəndə «Doing Business» hesabatını diqqətlə oxuyur, o ölkənin biznes mühitini öyrənir və sonra qərar qəbul edirlər. Ümumilikdə 190 ölkəni əhatə edən bu hesabatda biznes mühitinin inkişafına təsir göstərən müxtəlif indikatorlar təhlil olunur və hər bir indikator üzrə ayrıca qiymətləndirmə aparılır. Sevindirici haldır ki, «Doing Business» hesabatında Azərbaycanın mövqeyi hər il möhkəmlənir».

A.Badamov qeyd etmişdir ki, ötən ilin payızında açıqlanmış 2017-ci il üzrə hesabatda Azərbaycan 65-ci yerdə qərarlaşmışdı. Hesabata əsasən, respublikamız dünyada 3 və daha çox islahat aparan 29 ölkədən biridir: «Həyata keçirilən islahatlar arasında «Xarici ticarətin aparılması» göstəricisi üzrə beynəlxalq ticarət zamanı idxal və ixrac bəyannamələrinin elektron qaydada verilməsi sisteminin tətbiq edilməsi, «Vergilərin ödənilməsi» göstəricisi üzrə nəqliyyat vasitələrinə tutulan vergi üzrə sadələşdirilmənin aparılması və «Elektrik təchizatı şəbəkələrinə qoşulma» meyarı üzrə yeni qoşulmalar prosesi zamanı yeni istifadəçilərin qoşulma nöqtələrinin müəyyən edilməsi üçün sərf olunan vaxta qənaət edən məlumat bazasının yaradılması hesabatda mühüm islahatlar kimi vurğulanmışdır. Sevindirici haldır ki, ölkəmiz «biznesə başlama» göstəricisinə görə 5-ci yerdədir».




Tədbirlər planının təsdiq edilməsi ondan xəbər verir ki, Azərbaycan, «Doing Business» daxil olmaqla, digər beynəlxalq hesabatlarda da öz mövqeyinin yaxşılaşdırılması istiqamətində daha sistemli fəaliyyət göstərmək niyyətindədir

Millət vəkilinin sözlərinə görə, ölkədə biznes mühitinin yaxşılaşdırılması və hesabatda mövqelərimizin daha da möhkəmləndirilməsi üçün 2017-2018-ci illər üzrə Tədbirlər Planında 9 əsas istiqamət üzrə islahatların aparılması və icra prosedurlarının sadələşdirilməsi nəzərdə tutulur: «Əsasən tikintiyə icazələrin verilməsi, elektrik təchizatı şəbəkələrinə qoşulma, əmlakın qeydiyyatı, kreditlərin alınması, kiçik investorların maraqlarının qorunması, vergilərin ödənişi, sərhəddə ticarət, müqavilələrin icrasının təmin edilməsi, müəssisələrin bağlanması istiqamətində islahatlara xüsusi yer verilib. Bu istiqamətlər üzrə indiyədək kifayət qədər islahatlar aparılmasına baxmayaraq, hələ də müəyyən çətinliklər qalmaqdadır. Məsələn, tikintiyə icazələrin verilməsi istiqamətində qanunlarda müəyyən dəyişikliklərin edilməsinə baxmayaraq, icra olunmalı prosedurlar çoxdur və sahibkar bu məsələ ilə əlaqədar müəyyən çətinliklərlə üzləşir. Düşünürəm ki, bu istiqamətdə də sadələşdirmələrin aparılmasına və «bir pəncərə» sisteminin tətbiqinə ehtiyac var. Əminəm ki, Tədbirlər Planının vaxtında icra olunması hesabatda Azərbaycanın reytinqini daha da yaxşılaşdıracaq və nəticədə ölkə iqtisadiyyatının reqabət qabiliyyətinin artması ümumi inkişafımızın yüksəlişinə səbəb olacaq».

**Fəxriyyə İKRAMQIZI**

# Azərbaycan investisiyalar üçün cəlbediciliyini saxlayır

Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən «Azəri-Çıraq-Günəşli» yataqlarının birgə işlənilməsi və hasilatın pay bölgüsü sazişinin - «Əsrin müqaviləsi»nin müddətinin uzadılması yeni iqtisadi şəraitdə ölkəmizin investisiyalar üçün əlverişli olduğunu sübut edir: yeni əsrin sazişinə əsasən, qarşıdakı 32 il müddətində «Azəri-Çıraq-Günəşli» yataqlarına 40 milyard dollardan artıq əlavə sərmayə qoyulacaq. Bundan əlavə, ölkəmizə xarici investorlar tərəfindən 3,6 milyard dollar həcmində bonus ödəniləcək. SOCAR-ın «AzAÇG» şirkəti podratçı kimi kontraktın icrasında iştirak edəcək və onun köhnə müqavilədəki payı 11,6 faizdən 25 faizə qaldırılmışdır. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi isə 75 faiz təşkil edəcək.

Ümumiyyətlə, Azərbaycan həm neft, həm də qeyri-neft sektoruna investisiya qoyuluşu baxımından öz cəlbediciliyini qoruyur. Təkcə bir faktı qeyd edək ki, hüquqi şəxslərin dövlət qeydiyyatının «bir pəncərə» prinsipi ilə həyata keçirilməsinə başlanmasından (1 yanvar 2008-ci il tarixdən) etibarən 36.254 hüquqi şəxs rəsmi qeydiyyatdan keçmişdir ki, onlardan da 5470-i xarici investisiyalı müəssisələrdir. Bu, qeydiyyata alınmış müəssisələrin 15,1%-ni təşkil edir. Cari ilin son 8 ayı ərzində ölkəmizdə 558 xarici investisiyalı müəssisə qeydiyyata alınmışdır. Qeydiyyata alınmış xarici investisiyalı müəssisələrdən 147-si (26,3%) Türkiyə Respublikasının, 81-i (14,5%) İran İslam Respublikasının, 52-si (9,3%) Pakistan İslam Respublikasının, 39-u (7%) Rusiya Federasiyasının, 29-u (5,2%) Hindistan Respublikasının, 25-i (4,5%) Ukraynanın, 25-i (4,5%) Gürcüstan Respublikasının, 160-ı isə (28,7%) digər xarici ölkələrin investorlarıdır. Həmin şirkətlər əsasən sənaye, tikinti, nəqliyyat, bank, sığorta, rabitə, kənd təsərrüfatı və digər sahələr üzrə fəaliyyətə başlamışlar.

Ölkə iqtisadiyyatına xarici investisiya qoyuluşu ilə bərabər, daxili investisiyaların da həcmində artım müşahidə edilir. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2017-ci ilin yanvar-avqust aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 9 milyard 868,5 milyon manat və ya əvvəlki ilin yanvar-avqust ayları ilə müqayisədə 0,1 faiz çox vəsait yönəldilmişdir. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsait ümumi sərmayənin 39 faizini təşkil etmişdir. Vəsaitin 5 milyard 969,9 milyon manatı neft sektoruna, 3 milyard 898,6 milyon manatı isə qeyri-neft sektoruna yönəldilmişdir. Tikinti-quraşdırma işləri üçün istifadə olunmuş vəsaitin 78,7 faizi məhsul istehsalı obyektlərinin, 16 faizi xidmət sahələri üzrə obyektlərin, 5,3 faizi isə ümumi sahəsi 1 milyon 117,2 min kvadratmetr olan yaşayış evlərinin tikintisinin payına düşür. Əsas kapitala yönəldilmiş sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 69,8 faiz, bank kreditləri 11,8 faiz, büdcə vəsaitləri 11,8 faiz, əhalinin şəxsi vəsaitləri 4,5 faiz, büdcədənkənar fondların vəsaitləri 1,4 faiz, sair vəsaitlər isə 0,7 faiz təşkil etmişdir.

Ölkəmizə investisiya qoyuluşunun artmasında dövlət dəstəyi mexanizmləri və stimullaşdırıcı addımlar, o cümlədən vergi-gömrük siyasəti mühüm rol oynayır. Görülən işlər nəticəsində müxtəlif sahələr üzrə investisiyaların şaxələnməsi vergi daxilolmalarına da öz müsbət təsirini göstərmişdir. Bu ilin yanvar-avqust ayları ərzində vergi ödəyiciləri tərəfindən dövlət büdcəsinə 4 milyard 671 milyon 367,3 min manat məbləğində vəsait ödənilmiş, bununla da Vergilər Nazirliyi üzrə müəyyənləşdirilmiş proqnoz tapşırığına 100,1 faiz əməl olunmuşdur. Bu il Azərbaycanda vergi daxilolmalarının 75%-dən çoxu qeyri-neft sektorunun payına düşəcəyi proqnozlaşdırılır.

Onu da qeyd edək ki, hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatının elektron qaydada həyata keçirilməsi ölkənin biznes mühitinə müsbət təsir göstərmişdir. Fiziki və hüquqi şəxslərin vergi uçotunun Vergilər Nazirliyi tərəfindən elektron qaydada həyata keçirilməsi vətəndaşların sahibkarlıq fəaliyyətinə başlamasını xeyli asanlaşdırmışdır. Qanunvericiliyə edilmiş dəyişikliklərə əsasən, hüquqi şəxslərin elektron dövlət qeydiyyatı rüsumsuz həyata keçirilir. Yeni müəssisə yaratmaq istəyən sahibkarlar qeydiyyat prosesinə cəmi bir neçə dəqiqə vaxt sərf edirlər. Görülən tədbirlərin nəticəsində bu ilin 8 ayı ərzində 4282 hüquqi şəxs dövlət qeydiyyatına alınmışdır.




Gələcəkdə xarici investisiyalı hüquqi şəxslərin də onlayn qeydiyyatının aparılması istiqamətində hazırlıq işləri gedir. Artıq bu məsələ ilə bağlı layihə hazırlanaraq Azərbaycan hökumətinə təqdim edilmişdir. Bu addımın atılması imkan verəcək ki, kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatının tamamilə elektron qaydada aparılması mümkün olsun.

İnvestisiyaların təşviqi məqsədilə ölkəmizdə fəaliyyət göstərən şirkətlərə bir sıra güzəştlər də tətbiq edilir. İnvestisiyalarla bağlı qanunlar təkmilləşdirilmiş, vergi yükü azaldılmış, investorların hüquqlarının müdafiəsinin işlək mexanizmləri yaradılmış və əlverişli biznes mühiti formalaşdırılmışdır. İnvestisiya axınının artmasında vergi yükünün optimallaşdırılması xüsusi önəm kəsb edir və demək olar ki, hər il bununla bağlı vacib qərarlar qəbul edilir: bir sıra mallar və xidmətlər üzrə vergilərin dərəcələri tam və ya qismən azaldılmış, vergi güzəştləri tətbiq olunmuşdur ki, bu da vergi ödəyiciləri üçün əlverişli vergi mühitinin yaranmasına şərait yaratmışdır.

Onu da qeyd edək ki, respublikamızın bir sıra beynəlxalq müqavilələrə qoşulması, investisiyaların təşviqi və qorunması, gəlirlər və əmlakla bağlı ikiqat vergitutmanın aradan qaldırılması xarici investisiyaların ölkə iqtisadiyyatına axınını stimullaşdırmışdır. Azərbaycanın ikiqat vergitutmanın aradan qaldırılmasını nəzərdə tutan sazişlər şəbəkəsi əhəmiyyətli dərəcədə genişlənmiş və bu günə kimi 50-dən çox ölkə ilə müvafiq sazişlər imzalanmışdır. İkiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlərin əsas məqsədi mal və xidmətlərin sərbəst beynəlxalq mübadiləsinə maneçilik törədən vergi maneələrinin aradan qaldırılması yolu ilə beynəlxalq ticarət və sərmayə qoyuluşunu təşviq etməkdir. Hazırda Vergilər Nazirliyi bu istiqamətdə sistemli iş aparır. İkiqat vergitutmanın aradan qaldırılması barədə beynəlxalq sazişlərin imzalanması ölkədə əlverişli investisiya mühitinin yaradılmasına birbaşa təsir göstərməklə yanaşı, həm də vergidən yayınma hallarının qarşısının alınması məqsədilə ayrı-ayrı ölkələrin vergi orqanlarının bir-birinə qarşılıqlı yardım göstərməsi üçün əlavə imkanlar açır.

**Rəşad SADIQOV**

# Vergi islahatları kiçik və orta sahibkarlığı stimullaşdırır

**«Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi»nin yarımillik monitorinqi və qiymətləndirmə hesabatları açıqlanıb**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru Vüsal Qasımlı bildirib ki, yarımillik monitorinq və qiymətləndirmə qarşıya qoyulmuş hədəflər üzrə deyil, konkret fəaliyyətlərlə bağlı həyata keçirilib. Ümumi monitorinq və qiymətləndirmənin nəticələri göstərir ki, bu ilin 6 ayında nəzərdə tutulmuş tədbirlərin yarıdan çoxu icra edilməyə başlanıb, hətta bəzi tədbirlərin icrası yekunlaşıb. V.Qasımlı qeyd edib ki, ilin sonunda Strateji yol xəritələrinin icrası üzrə illik monitorinq və qiymətləndirmənin nəticələri təqdim olunacaq: «Bu onu deməyə əsas verir ki, bütün tədbirlər ilin sonunadək icra ediləcək, əldə olunan nəticələr yol xəritəsində təqdim olunmuş hədəf göstəricilərinə uyğun olacaq. Bütövlükdə, strateji vəzifələrin həyata keçirilməsi Azərbaycan iqtisadiyyatına öz töhfəsini verməkdədir. Belə şəffaf, hesabatlı bir monitorinq və qiymətləndirmə sisteminin qurulması strateji yol xəritələri üzrə Azərbaycan hökumətinin açıq hökumət prinsipləri üzərində həyata keçirdiyi siyasətə tam uyğundur».

> Hazırda Vergilər Nazirliyi tərəfindən KOS sahəsində stimullaşdırıcı vergi islahatları davam etdirilir və bu istiqamətdə cari ildə və qarşıdakı illərdə əlavə tədbirlərin görülməsi nəzərdə tutulur

### Vergilər Nazirliyinin icra etdiyi əsas istiqamətlər

«Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi»nin yarımillik monitorinqində vergi məsələləri ilə bağlı məqamlar da mühüm əhəmiyyət kəsb edir. Strateji yol xəritələrindən 3-də Vergilər Nazirliyi 5 istiqamət üzrə əsas icraçı, 9-da isə 34 istiqamət üzrə digər icraçı qismində fəaliyyət göstərir. Sənəddən irəli gələn tapşırıqların icrası məqsədilə nazirliyin kollegiyasının müvafiq qərarı ilə Tədbirlər Planı hazırlanıb, göstərilən hədəflərin icrası ilə bağlı məsul şəxslər təyin olunub.

Tədbirlər Planında əsas istiqamətlər büdcə-fiskal siyasətin həyata keçirilməsi və ortamüddətli xərclər çərçivəsinin yaradılması, kiçik və orta sahibkarlığın inkişafında stimullaşdırıcı vasitələrin tətbiqi, biznesin asanlaşdırılması, yoxlamaların təkmilləşdirilməsi, beynəlxalq reytinqlərdə mövqelərin yaxşılaşdırılması, səmərəli vergi sisteminin təşviq edilməsi, xarici investisiya strategiyasının həyata keçirilməsi, statistika infrastrukturunun təkmilləşdirilməsi ilə bağlıdır.

Vergilər Nazirliyinin əsas icraçı olduğu 5 istiqamətin hər bir alt qrupu üzrə nəzərdə tutulan konkret hədəflər də müəyyən olunub. Məsələn, kiçik və orta sahibkarlıq (KOS) səviyyəsində istehlak mallarının istehsalına dair vergi ilə bağlı hədəflər KOS fəaliyyəti üçün biznes mühitinin və tənzimləyici bazanın yaxşılaşdırılması, KOS subyektlərinin fəaliyyətində yoxlama və lisenziyalaşdırma mexanizmlərinin təkmilləşdirilməsi, yoxlamaların optimallaşdırılması və risk dərəcəsi əsasında aparılması, sahibkarlıq sahəsində stimullaşdırıcı vergi islahatlarının davam etdirilməsidir. Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair strateji hədəflərə vergi ilə bağlı istiqamətlər bu sahədə bazar infrastrukturunun inkişafı və istehsalçıların dünya bazarlarına çıxışının asanlaşdırılması, bazarın tənzimlənməsi sisteminin və daxili bazardakı ticarət üzrə uçot göstəriciləri ilə bağlı tənzimləmə sisteminin hüquqi əsaslarının təkmilləşdirilməsidir.

### Vergi sahəsində hansı işlər görülüb?

Vergilər Nazirliyinin icraçı olduğu bir neçə istiqamət üzrə işlər 2016-cı ildə tamamlanıb: qanunvericiliyə müvafiq dəyişikliklər olunub, xarici və yerli investorları bu sahəyə cəlb etmək üçün səmərəli vergi-gömrük rejimi təmin olunub. Vergi Məcəlləsinə dəyişikliklər və «Gömrük tarifi haqqında» Qanun qüvvəyə minib, qanunun tələblərinə uyğun olaraq sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 7 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, mənfəət vergisindən, eləcə də istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunublar. Hazırda KOS sahəsində stimullaşdırıcı vergi islahatları davam etdirilir və bu istiqamətdə cari ildə və qarşıdakı illərdə əlavə tədbirlərin görülməsi nəzərdə tutulur.

Vergi ilə bağlı islahatların ən mühüm istiqamətlərindən biri biznesin asanlaşdırılması və yoxlamaların təkmilləşdirilməsidir. «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»nin Tədbirlər Planının 1.5.2-ci yarımbəndində nəzərdə tutulmuş «Yoxlamaların optimallaşdırılması və risk dərəcəsi əsasında aparılması» və 1.5.3-cü yarımbəndinə aid «KOS sahəsində stimullaşdırıcı vergi islahatlarının davam etdirilməsi» tədbirləri üzrə təsdiq edilmiş işçi qruplar tərəfindən illik iş proqramı hazırlanaraq, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim olunub.

KOS subyektlərinin fəaliyyətində yoxlama və lisenziyalaşdırma mexanizmləri təkmilləşdirilib, vergi islahatları davam etdirilib. Yoxlamaların təşkili və aparılması məqsədilə sahibkarlar yüksək, orta və aşağı risk qruplarına bölünüb. Yoxlamaların optimallaşdırılması və risk dərəcəsi əsasında aparılması tədbiri üzrə KOS kateqoriyasına aid olan vergi ödəyicilərinin elektron informasiya sistemlərində fərqləndirilməsi üçün «iri, orta və kiçik sahibkar meyarları» nəzərə alınmaqla «KOS» abbreviaturasının strukturu və elektron informasiya sistemlərində əks etdirilməsi ilə bağlı layihə hazırlanıb. Layihədə bu kateqoriyaya aid olan vergi ödəyicilərinin elektron informasiya sistemlərində fərqləndirilməsi üçün müvafiq filtrlər («KOS», «KOS»- orta, «KOS»- kiçik) yaradılaraq Vergilər Nazirliyinin bütün funksional hesabatlarına əlavə edilməsi, hesabatların çıxış formasında və «Risklərin idarə edilməsi» ekranında KOS subyektlərinin ayrıca sütunda əks olunması nəzərdə tutulub. Hazırda Vergilər Nazirliyinin avtomatlaşdırılmış vergi informasiya sistemində «KOS» abbreviaturasının tətbiqinə başlanılıb.

### Qarşıya qoyulmuş vəzifələr...

«Strateji Yol Xəritəsinə uyğun olaraq səmərəli vergi sisteminin təşviqi, kiçik və orta sahibkarlıq sahəsində stimullaşdırıcı vergi islahatlarının davamı ilə bağlı illik plana əsasən, hüquqi şəxslərin dövlət qeydiyyatının asanlaşdırılması, xarici investisiyalı müəssisələrin elektron qeydiyyatı ilə bağlı qanunvericilikdə dəyişikliklərin edilməsi, yeni qeydiyyatdan keçən vergi ödəyicilərinin fəaliyyət istiqamətləri üzrə məlumatlandırma mexanizmlərinin işlənib hazırlanması nəzərdə tutulur. Vergi ödəyicilərinə xidmət sahəsində əsas planlar isə beynəlxalq standartlara uyğun elektron xidmətlərin göstərilməsini və dairəsinin genişləndirilməsini, BTP vasitəsilə göndərilən vergi bəyannamələrinin internet vergi idarəsi vasitəsilə təqdim edilməsi imkanının yaradılmasını, avtomatlaşdırılmış məlumat bazası əsasında bəyannamələrin vergi orqanı tərəfindən hazırlanmasını əhatə edir.

Vergilər Nazirliyinin digər yol xəritələrində müvafiq qurumlarla əlaqəli iştirakına, əsasən, maliyyə xidmətlərinin inkişafı, ağır sənaye və maşınqayırma, turizm sənayesi, logistika və ticarət, mənzil təminatı, telekommunikasiya və informasiya texnologiyaları, kommunal xidmətlərə dair strateji yol xəritələrində səmərəli fiskal-vergi siyasətinin həyata keçirilməsi də nəzərdə tutulur. Dinamik və sağlam institutlardan ibarət maliyyə sisteminin formalaşdırılması, sənaye zonaları, texnopark və sənaye klasterlərinə müxtəlif güzəştlərin tətbiqi, mövcud aktivlərin optimallaşdırılması, rəqabətədavamlı sektorun və Azərbaycan üzərindən ticarət həcminin artırılması üçün əlverişli mühitin yaradılması, yerli və regional turistlər üçün regional turizm növlərinin inkişaf etdirilməsi və turizm zonalarının yaradılmasının sürətləndirilməsi tədbirləri çərçivəsində vergi təşviqi, logistika və ticarət sahəsində mühüm hərəkətverici mexanizmlərin hazırlanması, əhalinin mənzil şəraitinin yaxşılaşdırılması və mənzil siyasətinə dəstək məqsədilə mənzillərin tikinti xərclərinin optimallaşdırılması, vergi azadolmaları, biznesin inkişafı üçün əlavə stimullaşdırıcı vasitələrin təmin olunması həyata keçiriləcək vergi siyasətinin ümumi mənzərəsini təşkil edir. İdarəetmə strukturlarının təkmilləşdirilməsi və İKT-nin gücləndirilməsi, hökumətin və sosial mühitin rəqəmsallaşdırılması, sahibkarlıq subyektlərinin fəaliyyətində məhsuldarlığın və əməliyyat səmərəliliyinin artırılması ilə bağlı siyasətin həyata keçirilməsində vergi tənzimləmələrindən istifadə olunacaq.

**Elbrus CƏFƏRLİ**

# AZPROMO kapital bazarının yeni proqramına qoşulub

Kapital bazarından maliyyələşməni təşviq edən məlumat və məsləhət xidmətləri proqramı - «Listinq Məsləhət Proqramı» (LMP) üzrə əməkdaşlıq haqqında Kollektiv Sazişə, yeni tərəfdaş kimi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu - AZPROMO da qoşulub. Bununla əlaqədar olaraq, sentyabrın 25-də Bakı Fond Birjasının (BFB) İdarə Heyətinin sədri Vüqar Namazov və AZPROMO-nun prezidenti Rüfət Məmmədov tərəfindən «Listinq Məsləhət Proqramı»na qoşulma haqqında saziş imzalanmış və bu münasibətlə BFB-də «Açılış zəngi» mərasimi keçirilmişdir.

Əməkdaşlıq haqqında sazişə əsasən, LMP-yə qoşulmuş şirkətlərin AZPROMO-nun müvafiq kataloqlarına daxil edilməsi, eyni zamanda mövcud şirkətlərin BFB ilə əlaqələndirilməsi, xarici investor bazarına çıxışın təmin edilməsi, eləcə də xarici investorların ölkənin qeyri-neft sektorunun inkişafına cəlb edilməsi istiqamətində potensial investorların müəyyən edilməsi, biznes mühitinin təkmilləşdirilməsi, BFB vasitəsilə kapital bazarlarına xarici investorların cəlb olunması həyata keçiriləcəkdir.

İmzalama mərasimindən sonra Vüqar Namazov AZPROMO ilə əməkdaşlıq əlaqələrinin qurulmasının və bu sahədə qarşılıqlı səylərin birləşdirilməsinin yerli bazara müsbət təsir göstərəcəyinə inandığını bildirmişdir. Rüfət Məmmədov isə ölkəmizə xarici investorların cəlb edilməsi, habelə yerli ixracla məşğul olan şirkətlərin istehsal potensialının artırılması istiqamətində bilik və bacarıqların yüksəldilməsinə dəstək göstərilməsi istiqamətində görülən işlərin genişləndirilməsində BFB ilə əməkdaşlıq əlaqələrinin qurulmasının qarşıya qoyulmuş hədəflərə nail olmaqda uğurlu olacağına əminliyini ifadə etmişdir.

Qeyd edək ki, LMP layihəsinin, AZPROMO da daxil olmaqla, hazırda 14 tərəfdaşı mövcuddur: KPMG, «Baker&Tilly», PwC, RSM Azərbaycan və EY audit şirkətlərinin Azərbaycan ofisləri; «Dentons», «Baker&McKenzie» və «LAN Law Chambers» hüquq şirkətlərinin Azərbaycan ofisləri, Yüksək Texnologiyalar Parkı, investisiya şirkətləri olan «Paşa Kapital» MMC, «İnvest-AZ» MMC, «AzFinance İnvest» MMC və «Unicapital» ASC.

Listinq Məsləhət Proqramı sahibkarların düşüncə tərzinin formalaşdırılması, listinqin və kapital bazarlarının təşviqi, şirkətlərdə korporativ idarəetmənin tətbiqi, kapital bazarı alətləri vasitəsilə yerli şirkətlərə investisiyaların cəlb edilməsi istiqamətində fəaliyyət göstərir.

**27 sentyabr Ümumdünya Turizm günüdür**

# Azərbaycanın turizm imkanları genişləndiriləcək

Zəngin mədəni-tarixi irsə, əlverişli təbii şəraitə malik olan Azərbaycanda turizm sektoru inkişaf yolundadır. Ölkədə turizmin inkişafına dair birinci Dövlət Proqramının reallaşdırılması müstəqilliyin ilk illərində tənəzzülə uğramış bu sektorun dirçəlməsinə şərait yaratdı. Dövlət başçısının 2002-ci il 27 avqust tarixli sərəncamı ilə «Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı»nın həyata keçirilməsi nəticəsində turizmin inkişafı üçün münbit şərait yaradılmış və ölkəmizin beynəlxalq turizm bazarına inteqrasiyasının əsası qoyulmuşdur.

Bu siyasətin davamı olaraq, Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsi məqsədilə dövlət başçısının 2010-cu il 6 aprel tarixli sərəncamı ilə «Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı» təsdiq edilmişdir. Turizm sektorunun inkişaf etdirilməsi və turizm fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasında qanunvericiliyə əməl olunması tapşırılıb. Bunun üçün əməkdaşlar təhkim edilib və müvafiq işlərin yerinə yetirilməsi istiqamətində operativ tədbirlər keçirilir.

Görülən tədbirlər isə nəticəsiz qalmır, Azərbaycana gələn turistlər tərəfindən nağdsız ödənişlərin həcmində artım müşahidə olunur. Mədəniyyət və Turizm Nazirliyinin məlumatına görə, 2017-ci ilin birinci yarısında Azərbaycana gələn xarici vətəndaşların bank kartları üzrə əməliyyatları ötən ilin müvafiq dövrü ilə müqayisədə 93 faiz artaraq 507 milyon 450 min 635 manat təşkil edib. Bu göstərici 2016-cı ilin birinci yarısında 263 milyon 427 min 544 manat, il ərzində isə 602 milyon 288 min 119 manat olmuşdu. Dəqiqlik naminə bildirək ki, qeyd olunan vəsaiti ölkəmizə gələn əcnəbilərin Azərbaycanda bank kartları vasitəsilə həyata keçirdikləri ödənişlər təşkil edir: onların səfərdən qabaq və ölkə daxilində nağd ödənişləri bu məbləğə daxil deyil.

Ölkəyə gələn əcnəbi turistlərin üstünlük verdikləri turizm mərkəzlərinin 75 faizi Bakıda yerləşir, digər hissə isə regional turizmin payına düşür. Dünya



**2017-ci ilin birinci yarısında Azərbaycana gələn xarici vətəndaşların bank kartları üzrə əməliyyatları ötən ilin müvafiq dövrü ilə müqayisədə 93 faiz artaraq 507 milyon 450 min 635 manat təşkil edib**

ması zərurəti nəzərə alınaraq, Azərbaycan Prezidentinin 2011-ci il 15 fevral tarixli sərəncamı ilə ölkəmizdə 2011-ci il «Turizm ili» elan edilmişdir.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, ölkəmizə hər il orta hesabla 2,5 milyon turist gəlir. Azərbaycanın füsunkar təbiəti, zəngin mətbəxi, yüksək səviyyədə ev sahibliyi etdiyimiz forumlar, festivallar, idman yarışları, simpoziumlar dünyanın fərqli guşələrindən insanları bu qonaqpərvər diyara cəlb edir. Nüfuzlu xarici mətbu orqanlarda Azərbaycanın turizm potensialı haqqında məqalələr dərc edilir, zəngin tarixi və mədəni irsi, gözəl təbiəti olan respublikamızın dünyanın hər yerindən qonaqları özünə cəlb etdiyi bildirilir, ölkəmizdə turizmin bütün növlərinin inkişafı üçün geniş imkanların olduğu diqqətə çatdırılır. Rəsmi statistikaya əsasən, 2017-ci ilin birinci yarısında ölkəmizə 1 milyon 199 min 667 nəfər xarici vətəndaş səfər edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 24 faiz çoxdur. Bu ilin birinci yarısında ölkəmizə gələn xarici vətəndaşların ümumi sayında Rusiya 74 min 491 nəfərlə ilk yerdə qərarlaşır. Sonrakı yerlərdə Gürcüstan, İran, Birləşmiş Ərəb Əmirlikləri, Ukrayna və İraq vətəndaşları gəlir.

Ölkəmizə gələn turistlərin əksəriyyəti əsasən nağdsız alış-veriş etməyə üstünlük verirlər. Bu reallıq nəzərə alınmaqla Azərbaycanda nağdsız ödənişlərin qanunvericilik bazasının təkmilləşdirilməsi üçün «Nağdsız hesablaşmalar haqqında» Qanun qüvvəyə minmişdir. Bu qanunun tətbiqi ilə əlaqədar bir çox qanunvericilik aktlarına, o cümlədən «Turizm haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən, turagentlərə ödəmələr yalnız nağdsız qaydada həyata keçirilir.

Bakıda və ümumiyyətlə, Azərbaycanda bir sıra xidmət sahələrində, o cümlədən müxtəlif ticarət, əyləncə, iaşə və s. obyektlərində POS-terminalların quraşdırılması və onlardan istifadə olunması Vergilər Nazirliyi tərəfindən ciddi nəzarətə götürülüb. Nazirliyin yaratdığı qərargaha vergi ödəyicilərinə məxsus təsərrüfat subyektlərində POS-terminalların quraşdırılması, istifadəsi, işlək vəziyyətdə olması, ondan istifadə qaydalarının mənimsənilməsinin nəzarətdə saxlanılması, əhali ilə hesablaşmalar sahəsində Səyahət və Turizm Şurasının məlumatlarına əsasən, Azərbaycanda turizm sektoru birbaşa ÜDM-in 2,8 faizini, məşğulluğun isə 2,6 faizini təşkil edir. Bu göstəricilər dünya üzrə orta göstəricidən (ÜDM-in 3 faizi və birbaşa məşğulluğun 3,6 faizi) göstəricilərdən cüzi fərqlənir və gələcək inkişaf potensialından xəbər verir

Bütün bunlarla yanaşı, Azərbaycanda turizm sektorunda xidmət və qiymətlər hələ də arzuolunan səviyyədə deyil. Müasir standartlara uyğun obyektlərin sayı azlıq təşkil edir. Ekspertlərin qənaətincə, rəqabət artdıqca müəssisə sahibləri həm qiymətə, həm də xidmətə fikir verməyə çalışacaqlar: bunu onlardan rəqabətə əsaslanan bazar qanunları tələb edir. Azərbaycanda mehmanxanaların sayı da kifayət qədər deyil. Daha çox 2-3-4 ulduzlu hotellərin yaradılması vacib hesab olunur. Çünki orta təbəqəyə aid turistlər məhz bu tipli hotellərdə və hostellərdə qalmağa üstünlük verirlər. Turizm üçün əlverişli regionlarda müasir səviyyəli özəl müalicə və istirahət mərkəzləri istifadəyə verilsə də, hələlik tələbat tam ödənilmir. Azərbaycan hökumətinin yaxın illərdə turistlərin sayını 30-40 faiz artırmaq planı bu sahədə işlərin daha da genişləndirilməsini tələb edir.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev bildirmişdir ki, 2020-ci ilə qədər Azərbaycana gələn turistlərin sayının ildə 5 milyon nəfərə çatdırılması planlaşdırılır. Ölkəmizin müxtəlif yerlərində xüsusi turizm zonaları yaradılacaq. Turizm zonasının inkişaf konsepsiyası sərmayəçilərə həmin ərazilərdə geniş tikinti-quruculuq işləri aparmağa və bu sahəni inkişaf etdirməyə imkan verəcək.

Bakının tamamilə əsas turizm məkanına çevrilməsinə, ölkə üzrə turizm potensialının reallaşdırılmasına, turizm sənayesinin inkişafı məqsədilə əlverişli mühitin və infrastrukturun formalaşdırılmasına, eləcə də turistlərin məmnunluq səviyyəsinin artırılmasına nail olmaq Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin «Strateji yol xəritəsi»nin əsas prioritetləri sırasındadır. 2025-ci ilədək olan dövr üçün qarşıya qoyulmuş uzunmüddətli plana əsasən, Azərbaycan dünya ölkələri arasında cəlbedici turizm məkanlarından birinə çevriləcək.

**Rəşad SADIQOV**

# Elektron xidmətlər əhalinin rahatlığını təmin edir

**Bu ilin 8 ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin e-xidmətlərinə 6,5 milyona yaxın müraciət daxil olub**

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elman Babayev bildirib ki, hazırda əmək, sosial sığorta, pensiya, müavinət və sosial yardım münasibətləri üzrə ümumilikdə 30-a yaxın elektron xidmət əhalinin istifadəsindədir. Təkcə ötən ay nazirliyin e-xidmətlərinə 516.152, cari ilin yanvar-avqust aylarında isə 6 milyon 486 min 533 müraciət edilib. Elektron xidmətlər məmur-vətəndaş təmaslarının minimuma endirilməsinə, vətəndaşların müvafiq sahələr üzrə dövlət xidmətlərindən real vaxt rejimində və şəffaf şəraitdə istifadəsinə, sosial xidmətlərin müvafiq təbəqələrdən olan vətəndaşlar üçün əlçatanlığının təmin edilməsinə imkan yaradır.

Son illərdə sosial təminat sisteminin mühüm elementlərindən olan ünvanlı dövlət sosial yardımlarının təyinatı mexanizminin avtomatlaşdırılmış sistem üzərində şəffaflaşdırılması, bu sahədə insan faktorunun iştirakı olmadan elektron müraciət və təyinat sisteminin tətbiqi cəmiyyət tərəfindən rəğbətlə qarşılanır. E.Babayevin sözlərinə görə, hazırda sosial yardımın alınması üçün müraciətlər «Ünvanlı sosial yardımla bağlı müraciətin edilməsi» e-xidməti vasitəsilə həyata keçirilir: «Təkcə ötən ay bu xidmətə 87,3 minədək müraciətin qeydə alınması sosial yardım hüquqlarına avtomatlaşdırılmış sistem tərəfindən şəffaf şəraitdə baxılmasına böyük ictimai marağın ifadəsidir. Son illərdə əlilliyin qiymətləndirilməsi üzrə xidmət də avtomatlaşdırılmış sistem üzərindən, vətəndaş-ekspert təmasları olmadan təqdim edilir. Bu elektron sistem vasitəsilə əlilliyin qiymətləndirilməsi üçün göndərişin kimə və hansı səhiyyə müəssisəsinə aid olduğu bilinmədən, tam obyektiv və şəffaf şəkildə əlillik qrupunun təyin edilib-edilməməsinə dair qərar qəbul olunur. «Tibbi-Sosial Ekspert Komissiyasında sonuncu müayinəyə dair məlumatın verilməsi», «Tibbi-Sosial Ekspert Komissiyaları tərəfindən keçirilmiş müayinə barədə məlumatın verilməsi» e-xidmətləri isə əlilliyin qiymətləndirilməsinin nəticəsi barədə vətəndaşlara elektron qaydada məlumat əldə etməyə imkan verir. Ötən ay hər iki e-xidmətə 30 minə yaxın, indiyədək isə 462 mindən çox müraciət daxil olub».

2014-cü ilin iyul ayından istifadəyə verilən Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemi əmək münasibətlərinin və bu münasibətlərdə baş verən dəyişikliklərin elektron müstəvidə rəsmiləşdirilərək şəffaflaşdırılmasına şərait yaradıb. Bu isə digər mühüm üstünlükləri ilə bərabər, hüquqi cəmiyyət üçün vacib amillərdən biri olan işçilərin gələcək pensiya və digər sosial təminat hüquqlarının təminatında vacib hüquqi əsas formalaşdırır.

«Elektron hökumət» portalına ümumi müraciətlərin 17,4 faizini (9 milyon 371 min müraciət) Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sisteminə aid müraciətlər təşkil edir.

Qeyd olunanlarla yanaşı, sosial sığorta münasibətləri üzrə hazırda 10-dan çox e-xidmət əhalinin istifadəsindədir. «Məcburi dövlət sosial sığortası üzrə hesabatların təqdim edilməsi», «Sığortaedənin (hüquqi şəxs) onlayn uçota alınması», «Sığortaedənin uçot nömrəsinin öyrənilməsi», «Sığortaedənin (fiziki şəxs) onlayn uçota alınması», «Məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi», «Sığortaolunanlara məlumatların verilməsi» və s. e-xidmətlər sosial sığorta münasibətlərinin, o cümlədən sosial sığorta üzrə hesabatların təqdim olunması, sosial sığorta vəsaitlərinin ödənişi prosedurlarının müasir əsaslar üzərində şəffaflaşdırılmasına səbəb olub. Hazırda vətəndaşların sosial sığorta sisteminin, demək olar ki, bütün sektorları üzrə e-xidmətlərdən faydalanmaq imkanları var.

**Sosial təminat sisteminin mühüm elementlərindən olan ünvanlı dövlət sosial yardımlarının təyinatı mexanizminin avtomatlaşdırılmış sistem üzərində şəffaflaşdırılması elektron müraciət və təyinat sisteminin tətbiqi cəmiyyət tərəfindən rəğbətlə qarşılanır**

«Pensiya təyinatı və pensiya növünün dəyişdirilməsi üçün müraciətin və sənədlərin qəbulu», «Pensiyaçıya məlumatların verilməsi», «Pensiya kalkulyatoru», eləcə də əmək qabiliyyətinin müvəqqəti itirilməsinə, hamiləliyə və doğuşa, uşağın anadan olmasına, uşağın üç yaşı tamam olanadək ona qulluq etməyə görə müavinətlərlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi və s. üzrə e-xidmətlər əhalinin müvafiq sahələrdə hər hansı məmura müraciət etmədən, dövlət xidmətlərindən real vaxt rejimində, şəffaf şəkildə faydalanmasına imkan verir.

**FƏXRİYYƏ**

# Sahibkarların maliyyə resurslarından istifadə imkanları genişləndirilir

**Son illər ölkəmizdə qeyri-neft sektorunun sürətlə inkişaf etdirilməsi məqsədilə diversifikasiya olunmuş, rəqabətqabiliyyətli və dayanıqlı iqtisadi artımı təmin edən milli iqtisadiyyatın formalaşdırılmasına nail olmaq dövlətin iqtisadi siyasətinin başlıca hədəfidir. Həyata keçirilən tədbirlər, uğurlu iqtisadi islahatlar nəticəsində bu sahədə bir sıra əhəmiyyətli nailiyyətlər əldə olunmuş, biznes və investisiya mühiti daha da yaxşılaşdırılmış, makroiqtisadi və maliyyə sabitliyi bərqərar edilmiş, ticarət balansında müsbət saldo bərpa olunmuş və valyuta ehtiyatları əhəmiyyətli miqdarda artmışdır.**

Bu günlərdə dövlət başçısının fərmanı ilə Kredit Zəmanət Fondunun yaradılması real sektorla maliyyə sektoru arasındakı iqtisadi tarazlığın bərpa olunması, maliyyə risklərinin bölüşdürülməsi, bankların dayanıqlığının və real sektora maliyyə axınının gücləndirilməsi və əks-dollarlaşmanın stimullaşdırılmasına nail olmaq üçün mühüm bir addım hesab oluna bilər. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin eksperti Ayaz Çaparlı «Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu» ASC-nin sahibkarların kommersiya banklarından milli valyuta ilə aldıqları kreditlərə təminat verən və həmin kreditlərə hesablanmış faizlərin bir hissəsini subsidiyalaşdıran hüquqi şəxs kimi çıxış edəcəyini bildirərək, «Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»ndə öz əksini tapmış islahatlardan biri kimi yüksək qiymətləndirmişdir. Qeyd edilmişdir ki, Fond vasitəsilə ölkədə maliyyə inklüzivliyinin artımına nail olmaq iqtisadi fəaliyyətin dəstəklənməsinə, sahibkarlığın inkişafına, məşğulluğun yaxşılaşmasına, ev təsərrüfatlarının istehlak imkanlarının genişlənməsinə və gəlir bərabərsizliyinin aradan qaldırılmasına əlavə dəstək verə bilər.

İqtisadçı Pərviz Heydərov qeyd etmişdir ki, ölkədə qeyri-neft sektorunun hərtərəfli inkişafının təmin edilməsində sahibkarların rolunu yüksəltmək üçün mövcud istehsal və xidmət sahələri yeniləşdirilməli, genişləndirilməli və səmərəliliyi artırılmalıdır. Bu məqsədə çatmaq üçün kredit resurslarına ehtiyacı olan kiçik və orta sahibkarların dövlət dəstəyi ilə daha geniş şəkildə əhatə olunması təmin edilməlidir. Xüsusən də investisiya layihələrində risklərin bölüşdürülməsi, girov təminatı tələbinin alternativ vasitələrlə əvəz edilməsi və sahibkarların maliyyə resurslarına çıxışını yaxşılaşdırmaq vacibdir.

Qeyd edilmişdir ki, bankları real sektoru maliyyələşdirməyə cəlb etməyin yolu iqtisadi fəallığın artmasından keçir ki, bu məqsədlə də sahibkarlıq fəaliyyəti üçün etibarlı stimul, möhkəm girov təminatı, uzunmüddətli kreditləşdirmə üçün müvafiq əlverişli şərtlər yaradılmalıdır.

P.Heydərovun sözlərinə görə, bu gün Azərbaycan iqtisadiyyatının 80%-dən çoxu özəl sektorun hesabına formalaşır. Bu isə özü özlüyündə müsbət faktdır: «Kredit Zəmanət Fondu sahibkarların müvəkkil banklardan manatla aldıqları kreditlərə təminat verən və dövlət başçısının müəyyən etdiyi hallarda və qaydada həmin kreditlərə hesablanan faizlərin bir hissəsinə subsidiya verən hüquqi şəxs statusu daşıyacaq. Bu isə xüsusən də kiçik və orta sahibkarlığı inkişaf etdirmək üçün irəliyə doğru atılan daha bir addım deməkdir».

İqtisadçı Samir Əliyev bu fikirdədir ki, Kredit Zəmanət Fondunun yaradılması kredit bazarının son iki ildə müşahidə edilən kiçilməsi prosesini səngidərək, sahibkarların kredit resursları əldə etmələri sahəsində mövcud məhdudiyyəti qismən aradan qaldıra biləcək: «Dünyanın bir çox ölkələrində kreditlərə zəmanət verən institutlar fəaliyyət göstərir və kredit risklərinin bir hissəsini üzərlərinə götürməklə sahibkarlara dəstək verirlər. Yeni yaradılan fondun üstünlükləri çoxdur: bu mexanizm kommersiya kreditləri üzrə ödəmə qabiliyyətinin itirilməsi və ya vaxtında ödəməmə ilə bağlı yaranan riski aradan qaldırır, kreditlərinə zəmanət verilən şirkətin kreditödəmə qabiliyyəti və borca xidmət vəziyyəti mütəmadi monitorinq edilir, onlara borcların idarə olunması, bazar perspektivlərinin dəqiq müəyyən edilməsi sahəsində məsləhətlər verir.

İri sahibkarlıq subyektlərindən fərqli olaraq, kiçik və orta sahibkarların girov qoymaq imkanları məhdududur, kreditləri qaytarmamaq riski, müflisləşmək təhlükəsi yüksəkdir, maliyyə hesabatlılığı lazımi səviyyədə deyil, likvid girovları yoxdur. Elə bu risklərə görə də banklar kiçik və orta sahibkarlara kredit verməkdə maraqlı deyillər. Nəticədə bazar istisadiyyatının əsas sütunu olan kiçik və orta sahibkarlar resurssuz qalırlar».

S.Əliyev yeni yaradılacaq fondun qarşısında bir çox vəzifələrin durduğunu bildirmişdir: «Fond öz fəaliyyətində əsas diqqəti kiçik və orta sahibkarlara yönəltməlidir. Maliyyələşmədə iqtisadiyyatın prioritet sahələri nəzərə alınmalı və onlara üstünlük verilməlidir. Müvəkkil banklar və borcalanlar arasında risklərin bölünməsi mexanizmləri dəqiq işlənməli və sahibkarın üzərinə az risklər qoyulmalıdır. Fond tərəfindən veriləcək təminatın kreditin dəyərinə münasibətdə nisbəti 50%-dən az, 80%-dən çox olmamalı və zəmanət yerli istehsalın dəstəklənməsinə yönəldilməlidir».

**F. İKRAMQIZI**

YADDAŞ

# Şadlıq evi, restoran və digər ictimai iaşə obyektlərinin sahiblərinin nəzərinə!

Azərbaycan Respublikası Vergilər Nazirliyinin 07.08.2017-ci il tarixli əmri ilə «Şadlıq evlərində, restoranlarda və digər ictimai iaşə obyektlərində musiqi, əyləncə və digər oxşar fəaliyyət, habelə fərdi foto, audio-video xidmətlərinin göstərilməsinə görə qeydiyyatın aparılması Qaydaları» təsdiq edilmişdir. Qaydalara əsasən, şadlıq evi, restoran və digər ictimai iaşə obyektlərində musiqi, əyləncə və digər oxşar fəaliyyət, habelə fərdi foto, audio-video xidmətləri göstərən şəxslərin «Qeydiyyat kitabı»nın tətbiqi nəzərdə tutulmuşdur.

«Qeydiyyat kitabı»nın tətbiqinin məqsədi ictimai iaşə obyektlərində musiqi, əyləncə və digər oxşar fəaliyyət, habelə fərdi foto, audio-video xidmətlərin göstərilməsi fəaliyyəti ilə məşğul olan şəxslərin gəlirlərinin uçotunun düzgün aparılmasının, onların fəaliyyətlərinə nəzarətin təşkilindən ibarətdir.

Nəzərinizə çatdırırıq ki, ictimai iaşə obyektində aşağıda göstərilən fəaliyyətlərdən hər hansı biri olduqda, həmin obyekt «Qeydiyyat kitabı» ilə təmin olunmalıdır:

- müğənnilik və ya ansambl (qrup) formasında musiqiçilik fəaliyyəti;
- fərdi qaydada həyata keçirilən aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət;
- fərdi foto, audio-video xidmətləri sahəsində fəaliyyət.

İctimai iaşə obyektlərinin sahibləri «Qeydiyyat kitabı»nı fəaliyyət göstərdiyi ərazinin vergi orqanına müraciət etməklə əldə edə bilərlər. «Qeydiyyat kitabı» vergi orqanı tərəfindən nömrələnmiş və qaytanlanmış qaydada, möhürlə təsdiq edilməklə uçotu aparılmaqla vergi ödəyicilərinə ödənişsiz təqdim edilir.

İctimai iaşə obyektlərinin sahibləri:

- «Qeydiyyat kitabı»nda müvafiq qeydləri yuxarıda göstərilən fəaliyyət növləri ilə məşğul olan şəxslərin çıxışına (ifasına), xidmətlərin göstərilməsinə başlamazdan əvvəl aparılmasını;
- «Qeydiyyat kitabı»nda qeyd olunan məlumatları hər ay başa çatdıqdan sonra növbəti ayın 10-dək aşağıda göstərilən formada vergi orqanına təqdim edilməsini təmin etməlidirlər.

İctimai iaşə obyektlərinin sahibləri «Qeydiyyat kitabı»nın düzgün işlənilməsinə, təmiz və səliqəli saxlanılmasına (vərəqlərin əzilməməsi, cırılmaması, yazıların qaralanmaması və ya pozulmaması), kitabda qeyd olunan məlumatların vergi orqanına vaxtında təqdim edilməsinə görə məsuliyyət daşıyırlar.

«Qeydiyyat kitabı»ndakı məlumatlar nəzərdə tutulmuş müddətdə vergi orqanına təqdim olunmadıqda və ya məlumatların düzgün tərtib olunmadığı aşkar edildikdə, həmin sahibkar riskli vergi ödəyicisi kimi qiymətləndirilməklə onun fəaliyyəti vergi orqanı tərəfindən xüsusi nəzarətə alınaraq nəzarət tədbirləri həyata keçiriləcəkdir.

**«Qeydiyyat kitabı»nda aparılan məlumatlar əsasında hər ay vergi orqanına təqdim edilməli məlumat forması**

| s/s | Təsərrüfat subyektində (obyektində) «Qeydiyyat kitabı» tətbiq olunan vergi ödəyicisinin | | | | | Musiqi, əyləncə və digər oxşar fəaliyyət, habelə fərdi foto, audio-video xidmətləri göstərən şəxsin | | | Göstərilən xidmətin növü | Çıxış edilən tarix | Çıxışın başlandığı və qurtardığı vaxt | Xidmət göstərən şəxslərə ödənilmiş pulun məbləği | Xidmət göstərilən dövrə aid sadə verginin ödənilməsi haqqında sənəd (var/yox) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Uçotda olduğu vergi orqanı | VÖEN-i | Adı | Obyektin adı | Obyektin kodu | Uçotda olduğu vergi orqanı | A.S.A | VÖEN (olmadıqda - FİN) | | | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |

# Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı:

- **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**
- **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Tayvan şirkəti ABŞ-dan 3 milyard dollarlıq vergi güzəşti alacaq

Viskonsin ştatının qubernatoru Skott Uorker displeylərin istehsalı zavodunun tikintisini stimullaşdırmaq məqsədilə «Foxconn» adlı Tayvan şirkəti üçün 3 milyard dollarlıq vergi güzəştini təsdiqləyən sənədi imzalamışdır. Gözlənilir ki, «Apple» üçün iPhone cihazlarının hazırlanmasında iştirak edən tayvanlılar bu biznesə 10 milyard dollara yaxın sərmayə qoyacaq və 3 mindən artıq iş yeri açacaqlar.

Maraqlıdır ki, Skott Uoker bu güzəşti demokratların istəyinin əleyhinə vermişdir. «Qubernator xarici şirkətlərə milyardlar verilməsinə məsuliyyət daşıyır, halbuki həmin vəsaiti burada investisiya kimi qoymaq olardı», - «One Wisconsin Now» qrupunun rəhbəri Skott Ross bildirmişdir.

Yerli mətbuatın yazdığına görə, 3 milyard dollar həcmində vergi güzəşti indiyədək ABŞ hökuməti tərəfindən verilmiş ən yüksək subsidiyadır.

# Aİ Argentina biodizeli üçün idxal rüsumlarını azaldacaq

Ümumdünya Ticarət Təşkilatının (ÜTT) müvafiq qərarından sonra Avropa İttifaqı (Aİ) Argentinadan gətirilən biodizel üçün idxal rüsumlarını 4,5-8,1 faizə qədər azaltmalı olmuşdur. Xatırladaq ki, 2013-cü ildə bu məhsul üçün rüsum dərəcələri 22-25,7 faiz səviyyəsində müəyyənləşdirilmişdi.

Aİ ölkələrinə əsas biodizel tədarükçüsü olan Argentina hökumətində hesab edirlər ki, bu qərardan sonra məhsul yenidən Avropaya göndərilə bilər. ABŞ-da isə biodizelin idxalının məhdudlaşdırılması üçün xüsusi qərarlar qəbul edilmişdir.

Aşağı salınmış idxal rüsumları Bunq, Karqill, Lui Dreyfus, eləcə də Molinos Rio-de-la-Platada yerləşən Argentina müəssisələrinə tətbiq olunacaq.

Qeyd edək ki, Avropaya biodizel məhsulunun ixracı ilə məşğul olan daha bir ölkə - İndoneziya üçün hələlik idxal rüsumları 2013-cü ildə qəbul edilmiş 8,8-20,5 faiz hədlərində qalır. Bu ölkə qaldırdığı məsələyə ÜTT-də baxılmasını gözləyir.

# Qazaxıstan vergi ödəyiciləri ilə münasibətləri təkmilləşdirir

Sentyabrın 12-də Qazaxıstan hökuməti vergi ödəyiciləri ilə münasibətlərin təkmilləşdirilməsini və vergi öhdəliklərinə könüllü əməl edilməsi səviyyəsinin qaldırılmasını nəzərdə tutan layihəni qəbul etmişdir. «Vergilər və büdcəyə digər məcburi ödənişlər haqqında» qanun layihəsi ilə bağlı hökumət tərəfindən belə açıqlama verilmişdir ki, gələcəkdə vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı fəaliyyətlər daha tez-tez, lakin daha məqsədyönlü olacaq. Qazaxıstanın Maliyyə Nazirliyi bildirmişdir ki, vergi ödəyiciləri vergi risklərindən asılı olaraq qruplaşdırılacaq və bu zaman məcburi icra resursları müvafiq qaydada müəyyənləşdiriləcək.

Vergi orqanı əməkdaşları əsas diqqəti öz vergi öhdəliklərini yerinə yetirməyənləri cəzalandırmağa deyil, qısamüddətli vergi davranışlarını və cari əməletmə səviyyələrini nəzarətdə saxlamağa yönəltməyə yönəldəcək. Dəyişikliklərə vergi məlumatlarındakı fərqliliklərlə bağlı iddia müddətinin üç ilə qədər azaldılması da daxildir. Bu dəyişiklik vergi orqanlarının vəzifəli əməkdaşları ilə vergi ödəyiciləri arasında daha böyük inam və qarşılıqlı anlaşma yaradacaq.

Nazirliyin mövqeyinə görə, belə bir addımın atılması ölkənin vergi administrasiyasının müəssisələrin vergi qanunvericiliyinə daim əməl etməsinə nail olmaq üçün müəssisələri dəstəkləməyə daha böyük səy göstərdiyini nümayiş etdirəcək.

Qanun layihəsinə hər bir ölkə üzrə hesabatlılıq tələbinin irəli sürülə bilməsi məqsədilə transfer qiymətləndirmə rejimi ilə bağlı dəyişiklik edilməsi də daxildir. Bu dəyişiklik İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) gəlirlərin yerinin dəyişdirilməsinə və vergi bazasının zəiflədilməsinə qarşı mübarizə layihəsi çərçivəsində irəli sürülmüşdür.

# Avstraliyada kapitalın artımına qoyulan vergiyə endirim edilir

Avstraliya hökuməti əlçatan qiymətlərlə icarəyə verilən mənzillərin investorları üçün 60 faizlik vergi endirimi barədə açıqlama yaymışdır. Əhalinin imkanlarına uyğun mənzillərin tikilməsi ilə bağlı siyasətin reallaşdırılması üçün hökumət yeni qanun layihəsi hazırlamışdır. 2018-ci il yanvarın 1-dən qiyməti əlçatan olan mənzillərə sərmayə qoyan sakinlər üçün kapitalın artımından tutulan verginin dərəcəsi 60 faizə qədər aşağı salınacaq. Lakin burada bir şərt var: sərmayə qoyan şəxsin bu güzəşti ala bilməsi üçün ən azı üç il investor kimi təcrübəsinin olması tələb edilir. Standart endirim isə 50 faiz təşkil edir.

Hökumətin planına əsasən, idarə edilən investisiya trestlərinə sərmayə qoymağa icazə veriləcək, lakin əhali üçün əlçatan mənzil proqramından əlavə uzunmüddətli ev və mənzillərin icarəsinə investisiya qoyulmasına yol verilməyəcək. Daha yüksək vergi endirimi və güzəştli vergi rejimi əldə edə bilmək üçün trestlər qeydiyyatdan keçmiş mənzil fondunun razılığını almalıdır: icarə haqqı və təqdim edilən ərazi də daxil olmaqla, icarəçinin qiymətləndirilməsi meyarlarını isə fond müəyyənləşdirəcək.



# OECD Estoniyanı vergi qanunvericiliyindəki dəyişikliyə görə tənqid edib

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) açıqlamasında Estoniya hökumətinin bölüşdürülən dividendlərdən tutulan verginin azaldılması barədə qərarının bəyənilmədiyini bəyan etmişdir. Təşkilatın mövqeyinə görə, bu qərar vergi sistemini mürəkkəbləşdirir və kiçik biznes üçün ayrı-seçkilik yaradır.

Qəbul edilmiş dəyişikliyə əsasən, gələn ildən bölüşdürülən dividendlərdən tutulan verginin dərəcəsi üç il dalbadal dividend ödəyən şirkətlər üçün 20 faizdən 14 faizə endiriləcək. OECD mütəxəssislərinin isə rəyi belədir ki, investisiya kimi yenidən qoyulan gəlirlərdən vergi tutulmadığına görə, bu tədbir özünü investisiya qoyan şirkətlərə hər hansı müsbət təsir göstərməyəcək.

Qeyd edilmişdir ki, bu addımı atmaqla hökumətin qısamüddəti perspektivdə biznesin genişləndirilməsinə nail olması mümkün ola bilər, lakin bu, sonradan vergi yığılmasında azalmaya səbəb olacaqdır.

Bununla yanaşı, OECD şirkətlərin öz gəlirlərinin uzunmüddətli istiqrazlar şəklində sərhəddən rüsumsuz keçirməsini qadağan edən qərardan məmnunluğunu bildirmişdir. Bu qərar iri şirkətlərin Estoniyadakı filiallarının gəlirlərinin köçürülməsi yolu ilə vergidən yayınma hallarını xeyli məhdudlaşdıracaq.

# BƏƏ və Səudiyyə Ərəbistanında ƏDV-nin fərqi nədir?

2018-ci ilin yanvarından Səudiyyə Ərəbistanında və Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) beş faiz dərəcəsi ilə əlavə dəyər vergisi tətbiq ediləcək. Lakin adı çəkilən ölkələrin bu planı necə gerçəkləşdirmək planları fərqlidir. İki ölkə arasında əsas fərq ondan ibarətdir ki, Səudiyyə Ərəbistanında ƏDV saziş kimi təsnif edilir, BƏƏ-də isə belə bir tələb yoxdur.

Səudiyyə Ərəbistanın müvafiq qanununun birinci maddəsində deyilir: «...bu qaydalarda əhatə olunan sözlər və ifadələr onların hər birinin aid olduğu sazişdəki mənanı daşımalıdır». Bununla belə, BƏƏ-də əlavə dəyər vergisi haqqında qanunda adları keçən bütün söz və ifadələrin tərifinin müəyyənləşdirilməsi üçün uzun siyahı tərtib olunmuş, İran körfəzi ölkələri ilə imzalanmış çərçivə sazişi isə nəzərə alınmamışdır.

Əmirliklərdə daha müfəssəl və müstəqil qanun qəbul edilmişdir. Səudiyyə Ərəbistanının qanunvericiliyi əlavə dəyər vergisi ilə bağlı çərçivə sazişinə istinad etdiyinə və bir çox təfərrüatları əhatə etmədiyinə görə nisbətən yığcamdır.

# Dünya üzrə ÜDM-in on faizi vergi limanlarındadır

ABŞ-ın milli iqtisadi araşdırmalar institutu yeni hesabatını nəşr etdirmişdir. Hesabatda bildirilir ki, ölkənin vergi ödəyicilərinin maliyyə və maddi dəyərlərinin böyük əksəriyyəti «offşor vergi limanları» adlandırılan ərazilərdə saxlanılır.

Yeni hesabat haqqında yayılmış mətbuat açıqlamasında göstərilmişdir ki, dünyada istehsal edilən ümumi daxili məhsulun on faizi «vergi limanlarındadır». Vergi ödəyiciləri tərəfindən vergi yayındırmaq üçün müxtəlif ölkələrdə seçilmiş vergi sığınacaqları isə bir-birindən əhəmiyyətli şəkildə fərqlənir.

Offşor vergi sığınacaqlarında yerləşən aktivlər Skandinaviyadakı vergi ödəyiciləri üçün ÜDM-in cəmi bir neçə faizini, kontinental Avropadakı vergi ödəyiciləri üçün 15 faizini, İran körfəzi və bir sıra Latın Amerikası ölkələrindəki vergi ödəyiciləri üçünsə 60 faizini təşkil edir.

krossvord



**Yuxarıdan aşağı:** 1.İstiqaməti təyin etmək üçün tətbiq olunan ölçü cihazı; 2.Fransa istehsalı olan pendir növü; 3.Kamerunda ən iri şəhər; 4.İdman ayaqqabıları, geyimləri və bir sıra idman inventarlarının istehsalı üzrə ixtisaslaşmış Almaniyanın məşhur sənaye şirkəti; 5.Rəsmən müəyyən edilmiş ödəniş, rüsum; 6.İlin son ayı; 9.Hər birinin müstəqil partiyaları olan üç alət və ya üç səs üçün yazılmış musiqi əsəri; 13.Xaçmaz rayonunda qəsəbə; 15.Serbiyanın paytaxtı; 16.Azərbaycan estrada müğənnisi; 17.Oynaqların iltihabı; 18.Feodalizm dövründə Yaponiyada samuray qılınclarından biri; 20.Alğı-satqı, ticarət; 21.«Məhəllə» filmində Südabə xala obrazını canlandırmış aktrisanın adı.

**Soldan sağa:** 1.Komik rolları ifa edən aktyor; 5.RF-nin Tomsk vilayətində çay; 7.Sitrus meyvə; 8.Yay meyvəsi; 10.Filtrsiz siqaret markası, həmçinin gül adı; 11.Təyyarə ilə uçmaqdan qorxan şəxs; 12.Yunan mifologiyasında bolluq, bərəkət, artım (nəsiltörətmə) tanrısı, sürünün, arıların, balıqların və meyvələrin qoruyucusu; 14.Balaca kisə; 19.Dünya səviyyəli ABŞ yazıçısı və ictimai xadimi; 21.Çertyojlardan, yaxud şəkillərdən dəqiq surət çıxartmaq üçün xüsusi üsullarla hazırlanmış nazik şəffaf kağız; 22.Vulkandan çıxan ərgin odlu kütlə; 23.Kimya laboratoriyalarında mayeni qızdırmaq üçün işlədilən şüşə qab; 24.Milli musiqi aləti; 25.Xana-xana pambıq və ya ipək parça növü.



*«Məhəllə» filmindən epizod*

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Babək; 2.Zakir; 3.Rəna; 4.Üzeyir *(Hacıbəyov)*; 5.Xilafət; 6.Klarnet; 9.Orden; 11.ÜDM; 13.Domra; 14.Almanax; 15.Auditor; 17.Era; 18.Ftorid; 21.Tvist; 22.Plaun; 23.Anji. **Soldan sağa:** 1.Bazardüzü; 5.Xok; 7.Bukingem; 8.Alma; 10.Kürd; 12.Mikrofon; 14.Amazon; 16.Septet; 19.Moderato; 20.Etap; 24.Nitq; 25.Franşiza; 26.Xor; 27.Badminton.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi:
Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor:
Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini:
Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan:
AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon:
012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 15000

## idman




# «İş yerinə velosipedlə!»



**Ümumdünya Avtomobilsiz Gün (World Carfree Day) münasibətilə sentyabrın 22-də Heydər Əliyev Mərkəzi, IDEA İctimai Birliyi və Azərbaycan Velosiped İdmanı Federasiyasının təşkilatçılığı, Bakı Nəqliyyat Agentliyinin dəstəyi ilə Bakıda maarifləndirmə xarakterli kütləvi aksiyalar təşkil edilib.**

Tədbir çərçivəsində əvvəlcə «İş yerinə velosipedlə!» şüarı altında veloyürüş keçirilib. İki yüzdən çox velosipedçi, skeytbordçu və rollerin qatıldığı yürüşün əsas məqsədi insanlar arasında davamlı və ekoloji təmiz nəqliyyat növlərindən, ictimai nəqliyyatdan istifadəni, eləcə də piyada gəzməyi təbliğ etmək, nəticədə atmosferə atılan tullantıların azaldılmasına töhfə verməkdir.

«Azneft» dairəsindən başlayan veloyürüş Heydər Əliyev Mərkəzində başa çatıb. Daha sonra tədbir Mərkəzin parkında maarifləndirici və əyləncəli proqramlarla davam etdirilib. Burada ekstrim velosipedçi və skeytbordçuların şousu, uşaqlar üçün velosiped təlimləri, velosipedlərdən təhlükəsiz istifadə ilə bağlı məlumatlandırma xarakterli oyun və bilik müsabiqələri keçirilib, qaliblər mükafatlandırılıb. Həmçinin Azərbaycanda istehsal edilən «ISMA BIKES» velosipedlərinin sərgisi, velodizayner Rafael Həmidoğlunun hazırladığı qeyri-adi əl işi olan velosipedlər nümayiş etdirilib, musiqi və digər sürprizlər təqdim olunub.

Ətraf mühitin mühafizəsinə həsr edilmiş Ümumdünya Avtomobilsiz Gününün geniş miqyasda qeyd olunmasına ilk dəfə 1997-ci ildə Böyük Britaniyada başlanıb. Hazırda bu aksiyaya dünyanın 35 ölkəsindən 1500-dən çox şəhər qatılır. Artıq Azərbaycanda da bu gün - sentyabrın 22-si qeyd edilməyə başlanıb. Bu çağırışa çoxsaylı velosipedçi qoşulub.

# Qadın voleybolçularımız Avropa çempionatının dörddəbir finalında...




Sentyabrın 25-də qadın voleybolçular arasında Avropa çempionatının final mərhələsinin «A» qrupunda yer alan Azərbaycan milli komandası Almaniya yığması üzərində inamlı qələbə qazanaraq dörddəbir finala yüksəlib.

Gərgin idman mübarizəsi şəraitində keçən birinci setdə Almaniya millisi 25:19 hesabı ilə üstün olub. İkinci setdə təşəbbüsə yiyələnən Azərbaycan voleybolçuları qələbə qazanaraq (25:19) ümumi hesabı bərabərləşdiriblər - 1:1. Qarşılaşmanın üçüncü setində üstün oyun nümayiş etdirən voleybolçularımız 25:18 hesabı ilə qalib gəliblər. Bu qələbə sayəsində milli komandamız ümumi hesabda irəli çıxıb - 2:1. Matçın dördüncü seti də yüksək əzmkarlıq nümayiş etdirən Azərbaycan voleybolçularının qələbəsi ilə başa çatıb - 25:18.

Beləliklə, «A» qrupunda keçirdiyi üç görüşün hamısında parlaq qələbə qazanaraq ən yüksək nəticə göstərən Azərbaycan voleybolçuları dörddəbir finala birbaşa vəsiqəni təmin ediblər.

Milli komandamız əvvəlki görüşlərdə Macarıstan və Polşa yığmalarına 3:0 hesabı ilə qalib gəlib. «A» qrupundan Polşa və Almaniya yığma komandaları mübarizəni pley-offda davam etdirəcəklər.

Dörddəbir finala birbaşa vəsiqənin digər sahibləri isə İtaliya, Rusiya və Serbiya milli komandalarıdır.

# Azərbaycanlı atlet Avropa rekordunu yenilədi

Kosovonun paytaxtı Priştinada 15 və 17 yaşlı yeniyetmə ağır atletlər arasında Avropa birinciliyində idmançımız Rüstəm Qasımov birdənqaldırma hərəkətində hər üç yanaşmanı uğurla yerinə yetirib. Turnirdə 56 kiloqram çəki dərəcəsində mübarizə aparan R.Qasımov ardıcıl olaraq 92, 96 və 100 kiloqramı ram edərək bu hərəkət üzrə Avropanın ən yaxşısı olub.

Azərbaycan Ağır Atletika Federasiyasından bildiriblər ki, idmançımız 100 kiloqramı başı üzərinə birdənqaldırma hərəkətində türkiyəli Toptaş Canerə məxsus olan Avropa rekordunu (99 kiloqram) yeniləməyi bacarıb. R.Qasımov təkanla qaldırma hərəkətində də uğurla çıxış edib. O, 112, 118 və 121 kiloqramı başı üzərinə qaldırmaqla bu hərəkətdə də Avropada hamıdan yaxşı olduğunu sübut edib. Ümumilikdə 221 kiloqram (100+121) nəticə əldə edən R.Qasımov yeniyetmələr arasında Avropa çempionu olub.

Digər idmançımız Murad Əliyev isə birdən qaldırma hərəkətində hər üç yanaşmanı uğursuz başa vurub. O, təkanla qaldırmada 105 kiloqramı ram edərək bu hərəkət üzrə doqquzuncu yeri tutub.

## mozaika

qalaktika



# İşığı əks etdirməyən nəhəng planet

Kanadadakı Makgil Universitetinin alimləri Günəş sisteminin xaricində işığı əks etdirməyən səthə malik «qara» planet aşkarladıqlarını açıqlayıblar. Teylor Bellin rəhbərlik etdiyi astronomlar qrupu həmin planetə «WASP-12b» adını veriblər.

T.Bellin sözlərinə görə, «WASP-12b» Günəş sisteminin ən iri planeti olan Yupiterdən iki dəfə böyükdür. Ətrafında fırlandığı ulduza çox yaxın olduğu üçün bu planetin birillik dövriyyəsi dünyanın birgünlük hərəkətinə bərabərdir. «Qara» planetin səthinin 2600 dərəcəyədək isindiyi, tərkibindəki maddələrin isə işığı udduğu ehtimal edilir. Bununla yanaşı, planetin əks etdirdiyi işığın miqdarını ölçən tədqiqatçılar «WASP-12-b»dən yayılan işığın son dərəcə zəif olduğunu bildirirlər.

texnologiya

# Enerjidoldurma qurğularının meydanı daralır



Aktiv istifadə zamanı mobil qurğuları portativ akkumulyatorlar vasitəsilə gün ərzində 2-3 dəfə enerji ilə doldurmaq lazım gəlir. Yeni «Wi-Charge» texnologiyası isə bütöv bir məkanı böyük simsiz enerjidoldurma qurğusuna çevirə bilir.

«Wi-Charge» istehsalçıları bu texnologiyanın hazırlanmasında müxtəlif həcmə malik batareyaların enerjini müxtəlif cür toplaması faktını nəzər alıblar. Buna görə də texnologiyanın bir neçə variantı mövcuddur. «Light» texnologiyası iş yeri sahəsində mobil telefonların batareyalarının yenidən sürətli yüklənməsinə hesablanıb. «Kiik» adlı ikinci variant müxtəlif daşınan elektronikalar kimi kiçik enerji istehlakına malik qurğuların enerji təminatına yönəldilib. Sonuncu «Rayo» adlı ən güclü üsul isə 25 kvadratmetrədək sahədə mobil qurğuları, hətta planşetləri də enerji ilə doldurmaq imkanına malikdir.

Hazırda «Wi-Charge» texnologiyasının çatışmayan cəhətləri və insan orqanizminə təsirləri öyrənilir. Əgər bu sınaqların nəticəsi müsbət olarsa, yeni texnologiya ənənəvi enerjidoldurma qurğularından istifadəni məhdudlaşdıracaq.

araşdırma

# Depressiyadan əziyyət çəkənlər üçün sorğu

Google» ABŞ-da «depressiya» sözünü axtarış sistemində araşdıran insanlara psixoloji vəziyyətlərinin müəyyənləşdirilməsi üçün xüsusi sorğu təklif etməyi planlaşdırır. Bəzi şərhçilər bu sorğunun depressiyadan əziyyət çəkənlərə nə dərəcədə faydalı olacağını müzakirə edirlər. Belə ki, mütəxəssislər bu cür sorğunun dərhal həyata keçiriləcəyi təqdirdə insanın depressiyada olub-olmadığını müəyyənləşdirməsini və atacağı addımı bu nəticəyə əsasən tənzimlənməsini müsbət hal kimi dəyərləndirirlər.

sağlam həyat tərzi

# Üzümlə müalicə

Üzüm təbiətin yeganə nemətidir ki, ona xüsusi olaraq ampeloqrafiya elmi həsr edilib. Yunanca ampelos - üzüm, qrafo - yazıram deməkdir. Ampeloqrafiya üzüm, üzümün müxtəlif növ və sortları, onun xüsusiyyətlərinin ətraf mühit və insan amilinin təsirindən dəyişmə qanunauyğunluqlarını öyrənən elmdir. XIX əsrin əvvəllərindən bir elm kimi inkişaf etməyə başlayıb. İlk dəfə ampeloqrafiya terminini 1661-ci ildə elmə gətirən polşalı təbiətşünas Filip Yakov Saks onun banisi hesab edilir. Ampeloqrafiyanın elmi əsasını ispan alimi Simon de Roxas Klemente işləyib.



Xüsusilə də xroniki xəstəliklərin müalicəsində üzüm və onun təzə sıxılmış şirəsindən istifadə ampelotepiya adlanır. Ampeloterapiya dietoterapiyanın bir hissəsi olub, həkimin təyinatı əsasında medikamentoz müalicə, dietoterapiya və ya klimatoterapiya ilə birgə tətbiq edilir.

Ampeloterapiya zamanı qidada müəyyən məhdudiyyətlərə yol vermək lazımdır. Daha yaxşı olar ki, müalicə müddətində kvas, şirin qazlı içkilər, hisə verilmiş, turşuya, duza qoyulmuş, çox yağlı məhsullar, çiy kələm, çuğundur və turp yeyilməsin. Həmçinin digər giləmeyvə, meyvə və göyərtilərin qəbulu dayandırılmalıdır. Ampeloterapiya prosedurlarına başlamazdan əvvəl xəstə dişlərin müalicə edilməsi məsləhətdir. Üzüm şirəsi içiləndən sonra ağız boşluğu su ilə yaxalanmalıdır.

Ampeloterapiyanın aparılma qaydası belədir: gündə 3 dəfə 400 qram üzüm yeyilir- onu üç hissəyə bölüb bir hissəsi səhər acqarına, ikinci hissə nahardan 2 saat əvvəl və üçüncü hissə nahardan 3 saat sonra yeyilir. Dördüncü həftəyə qədər üzümün gündəlik miqdarı artırılaraq 3 kiloqrama çatdırılır. Bundan sonra üzümün miqdarını hər qəbulda tədricən azaltmaq lazımdır, həkimlər həzm sistemində hər hansı narahatlığı olanların üzümün giləmeyvələrini yeməyi deyil, təzə sıxılmış şirəsini içməyi məsləhət görürlər.

Ampeloterapiya şəkərli diabet, mədənin xora xəstəliyi, xroniki vərəmin kəskinləşmə mərhələsi, piylənmə, hipertoniya və xroniki ishal zamanı aparılmır. Prosedur zamanı əsasən üzümün şasla, rislinq, semilyon, qaus, tağüzüm, ağ kişmiş və çeleki sortlarından istifadə edilir.

mədəniyyət

# Serbiyanın paytaxtında «Arşın mal alan»



Sentyabrın 18-də dahi bəstəkar Üzeyir Hacıbəylinin doğum günü münasibətilə Belqrad Etnoqrafiya Muzeyinin kino zalında 1945-ci ildə çəkilmiş «Arşın mal alan» filminin Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunmuş rəngli versiyası nümayiş olunub. Tədbir Azərbaycanın Serbiyadakı səfirliyi və Mədəniyyət Mərkəzinin təşəbbüsü və dəstəyi ilə reallaşdırılıb. Filmin nümayişində Belqraddakı diplomatik korpusun və Serbiya ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycanın Serbiyadakı Mədəniyyət Mərkəzinin direktoru, professor Zərifə Əlizadə izləyicilərə Üzeyir Hacıbəylinin yaradıcılığı haqqında məlumat verib. Dahi bəstəkarın müsəlman şərqində ilk operanın müəllifi, eləcə də Azərbaycan dövlət himninin müəllifi olduğunu vurğulayıb. Bildirib ki, dahi bəstəkarın doğum günü Azərbaycanda Milli Musiqi Günü kimi qeyd olunur.

Film yerli tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

**Müdriklər deyib ki...**



***«Güclü olmaq yaxşı, ağıllı olmaq isə ikiqat yaxşıdır».***

***İ.A.Krılov (1769-1844)***